**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

7 mart 2026-cı il №09 (9164) www.muallim.edu.az muallim@media.edu.az






## Naxçıvan Beynəlxalq Hava Limanı, onun terminal binası, məktəb və digər istiqamətlər İran tərəfindən namərd atəşə məruz qalmışdır

### Azərbaycan dövləti bu çirkin terror aktını qətiyyətlə pisləyir, bunu törədənlər dərhal məsuliyyətə cəlb edilməlidir

Bu gün İran tərəfindən Azərbaycan ərazisinə qarşı, Azərbaycan dövlətinə qarşı terror aktı törədilmişdir. Naxçıvan Muxtar Respublikasının ərazisini İran dövləti pilotsuz uçuş aparatları ilə atəş altına salmışdır. Atəşin hədəfləri mülki obyektlər idi. Naxçıvan Beynəlxalq Hava Limanı, onun terminal binası, məktəb və digər istiqamətlər İran tərəfindən namərd atəşə məruz qalmışdır. Azərbaycan dövləti bu çirkin terror aktını qətiyyətlə pisləyir, bunu törədənlər dərhal məsuliyyətə cəlb edilməlidir. Azərbaycan tərəfinə İran rəsmiləri tərəfindən izahat verilməlidir, üzr istənilməlidir və bu terror aktını törədənlər cinayət məsuliyyətinə cəlb edilməlidir.

Dəfələrlə İran tərəfinə, xüsusilə keçən il baş vermiş toqquşmalardan sonra bildirilmişdir ki, Azərbaycan ərazisindən heç bir qonşu dövlətə qarşı istifadə olunmayacaq. Biz buna imkan verməyəcəyik, necə ki, heç vaxt bu günə qədər imkan verməmişik. Düzdür, keçən ilin yay aylarında və ondan sonrakı dövrdə İrandan bizə əsassız ittihamlar irəli sürülürdü. İranın dövlət qurumlarının nəzarətində olan media resursları Azərbaycanı ləkələmək, İranda yaşayan soydaşlarımızın fikrini dəyişdirmək üçün Azərbaycana qarşı çirkin, şər-böhtan kampaniyası aparırdı. Çünki yaxşı bilirlər ki, bu gün müstəqil Azərbaycan dövləti İranda yaşayan bir çox azərbaycanlılar üçün də ümid yeridir. Yəni bizi ləkələmək, bizi şərləmək, gözdən salmaq İran ictimaiyyəti qarşısında bu məqsədi güdürdü. Çünki bunun heç bir əsası yox idi. Azərbaycan nə o vaxt, nə də bu dəfə İrana qarşı olan əməliyyatlarda iştirak etmir və etməyəcək. Çünki bizim mövqeyimiz bundan ibarətdir. Bizim qonşu ölkələrə qarşı hər hansı bir əməliyyat keçirməyə nə marağımız var, nə də siyasətimiz buna imkan verir. Biz öz ərazi bütövlüyümüzü qoruyuruq və qorumuşuq.

*Prezident İlham Əliyevin Təhlükəsizlik Şurasının iclasındakı çıxışından*

*5 mart 2026-cı il*



## Mübarizələrlə dolu böyük keçmişimiz qadınlarımızın müdrikliyi, fədakarlığı və qəhrəmanlığının parlaq nümunələri ilə zəngindir

### Prezident İlham Əliyev 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarını təbrik edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik məktubu ünvanlayıb.**

**Təbrikdə deyilir:**

**Hörmətli xanımlar!**

Sizi Beynəlxalq Qadınlar Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, hamınıza cansağlığı, səadət və işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

Azərbaycan xalqı qadın adını hər zaman zərifliyin, gözəlliyin, ülviyyətin rəmzi bilmiş və ona dərin ehtiram göstərmişdir. Mübarizələrlə dolu böyük keçmişimiz qadınlarımızın müdrikliyi, fədakarlığı və qəhrəmanlığının parlaq nümunələri ilə zəngindir. Hər bir azərbaycanlının qəlbində məhz Ana məfhumu daim doğma yurdla, Vətən torpağı ilə bağlı işıqlı duyğular yaradır. Bəşər mədəniyyəti xəzinəsinə töhfəmiz olan milli-mənəvi dəyərlərimizin bir bütöv halında qorunub saxlanılmasında, dilimizin əsrlərin sınağından çıxaraq layiqincə yaşadılmasında analarımızın misilsiz xidməti vardır.

Ölkəmizdə tarixən qadının cəmiyyət həyatında fəal iştirakına həmişə rəğbət və hörmətlə yanaşılmışdır. Azərbaycan qadınlarının bir çox qabaqcıl dünya ölkələri qadınlarından daha əvvəl seçib-seçilmək hüququ əldə etmələri bu mütərəqqi münasibətin ifadəsidir. Ötən illərdə sosial-mədəni təşəbbüskarlıqları ilə yüksək ictimai mövqe və nüfuz sahibi olmuş qadınlarımız təhsil, mədəniyyət, səhiyyə və elm sahələrində bu gün də uğurla çalışmaqdadırlar. Maarifpərvər sələflərinin ənənələrini davam etdirən xanımlarımızın ölkənin müasir simasının müəyyənləşməsinə yönəlmiş çoxsaylı nailiyyətləri müstəqillik salnaməmizin qürurverici səhifələridir.

Əminəm ki, qadınlarımız gənc nəslin Vətənə və milli ideallara sədaqət ruhunda tərbiyəsi üçün bundan sonra da qüvvələrini əsirgəməyəcək, ictimai-mənəvi mühitimizə yeni töhfələr bəxş edəcəklər.

**Əziz xanımlar!**

**Bayramınız mübarək olsun!**



## Ölkə Prezidenti gənclərin inkişafına xüsusi diqqət yetirir

Bax səh.3



## Təhsilin bütün pillələrində gender bərabərliyinə xüsusi diqqət yetirilir

Bax səh.4

## “Qlobal təhsildən milli inkişafa”

Bax səh.5

## 250 tələbəyə “Həmkarlar ittifaqı təqaüdü” təqdim olunub

Bax səh.6

## “İdmançının ən böyük qüruru bayrağı zirvələrə qaldırmaqdır”

Bax səh.8

# Elm və təhsil naziri Şuşada vətəndaşları qəbul edəcək




**Elm və təhsil naziri Emin Əmrullayev 11 mart tarixində Şuşa şəhərində vətəndaşları qəbul edəcək.**

Qəbulda Şuşa, Xankəndi və Xocalı sakinləri iştirak edə bilərlər. Adları çəkilən şəhər və rayonların sakinləri 6 mart (saat 18:00-dək) tarixinədək Elm və Təhsil Nazirliyinin Çağrı Mərkəzinin 146 — 11 nömrəli telefonuna (yalnız iş günləri və saatları ərzində) zəng etməklə qəbula yazıla bilərlər. Bununla yanaşı, nazirliyin rəsmi saytının https://edu.gov.az/az/contact_us bölməsinə elektron formada və ya +994 51 206 78 48 nömrəsinə "WhatsApp" vasitəsilə müraciət göndərmək mümkündür.

Nəzərinizə çatdırırıq ki, qəbulda iştirak üçün qeydiyyat mütləqdir.

# Ali təhsil müəssisələri arasında rəqabət mühitinin gücləndirilməsi vacibdir

## Ali təhsil müəssisələrinin rəhbərləri ilə görüş keçirilib



**Martın 3-də Bakı Ali Neft Məktəbində ali təhsil müəssisələrinin rəhbərləri ilə görüş keçirilib.**

Ali təhsil müəssisələrinə qəbul prosesinə həsr olunmuş görüşdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, elm və təhsil naziri Emin Əmrullayev, Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri Məleykə Abbaszadə, elm və təhsil nazirinin müavinləri, nazirliyin müvafiq struktur bölmələrinin rəhbərləri və ali təhsil müəssisələrinin rektorları iştirak ediblər.

Açılış nitqi ilə çıxış edən elm və təhsil naziri Emin Əmrullayev gündəlikdə yer alan məsələləri qeyd edib və müzakirəsinin əhəmiyyətini vurğulayıb.

Daha sonra Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri Məleykə Abbaszadə "Biliyin qiymətləndirilməsi və ali təhsil müəssisələrinə tələbə qəbulu" mövzusunda geniş təqdimatla çıxış edib. Sədr müasir dövrdə ölçülməsi vacib olan bilik və bacarıqlardan bəhs edib, xüsusilə rəqəmsal savadlılığın qiymətləndirilməsində əsas məqamları diqqətə çatdırıb. Qeyd olunub ki, qəbul prosesi məqsədyönlü və məsuliyyətli təhsil trayektoriyasının başlanğıcı kimi formalaşdırılmalıdır.

Çıxışında ali təhsil müəssisələri ilə bağlı mövcud problemlərə və həlli yollarına toxunan Emin Əmrullayev bu sahədə gələcək fəaliyyət istiqamətləri barədə də ətraflı məlumat verib. Nazir ali təhsil müəssisələri arasında rəqabət mühitinin gücləndirilməsinin vacibliyini xüsusi vurğulayıb, bunun təhsilin keyfiyyətinin yüksəldilməsi və beynəlxalq reytinqlərdə mövqelərin gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıdığını qeyd edib.

Görüş çıxışlardan sonra qarşılıqlı müzakirə formatında davam etdirilib, mövcud məsələlər ətrafında fikir mübadiləsi aparılıb və təkliflər səsləndirilib.



# Direktorun əsas fəaliyyətləri sırasında tədrisin keyfiyyətinin yüksəldilməsi yer almalıdır




**Elm və təhsil naziri Emin Əmrullayev Bakı, Gəncə, Sumqayıt şəhərlərində və müxtəlif bölgələrdə yerləşən ümumi təhsil müəssisələrinə yeni təyin olunmuş direktorlarla görüşüb.**



## Nazir yeni təyin olunmuş məktəb direktorları ilə görüşüb

Nazir əvvəlcə məktəb rəhbərlərini yeni vəzifəyə təyin olunmaları münasibətilə təbrik edərək onlara fəaliyyətlərində uğurlar arzulayıb. Emin Əmrullayev bildirib ki, Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən edilmiş qaydalara əsasən direktorların müsabiqə yolu ilə seçilməsində məqsəd məktəblərdə peşəkar və effektiv idarəetmənin təmin edilməsidir.

Elm və təhsil naziri direktorların məktəbin inkişafına cavabdeh əsas idarəedici şəxslər olduğunu, strateji idarəetmə prinsipləri əsasında fəaliyyət göstərmələrinin vacibliyini vurğulayıb.

Məktəb və müəllimin cəmiyyətdəki nüfuzunun artırılmasının əhəmiyyətinə toxunan Emin Əmrullayev, eyni zamanda ümumi təhsilin qarşısında duran müasir çağırışları nəzərə çatdırıb. Məktəblərdə pedaqoji prosesin düzgün təşkilinin, nizam-intizam qaydalarına əməl olunmasının mühümlüyünə diqqət çəkən nazir ümumi təhsil müəssisələri rəhbərlərinin üzərinə düşən vəzifələri, bu baxımdan diqqət yetirilməsi vacib olan məqamları, sağlam tədris mühitinin formalaşdırılması və idarəetmə işinin təkmilləşdirilməsinə yönələn tədbirləri qeyd edib.

Nazir bildirib ki, direktorun əsas fəaliyyətləri sırasında tədrisin keyfiyyətinin yüksəldilməsi yer almalıdır. Təlim-tədris prosesinə sistemli nəzarət mexanizmi qurulmalı, dərslərin keyfiyyəti izlənilməli, dərs dinləmələri keçirilməli, öyrənmə prosesi düzgün təşkil edilməli və metodik işin yaxşılaşdırılması diqqətdə saxlanılmalıdır.

Daha sonra elm və təhsil naziri məktəb rəhbərlərinin müəllimlər, şagirdlər və valideynlərlə müntəzəm kommunikasiya qurmasının əhəmiyyətini və qarşılıqlı etimada əsaslanan mühitin formalaşdırılması istiqamətində işlərin aparılmasının vacibliyini qeyd edib.

Görüş məktəb direktorları ilə qarşılıqlı fikir mübadiləsi və interaktiv müzakirə şəraitində davam etdirilib və səsləndirilən məsələlərin həlli yolları müzakirə edilib, həmçinin məktəb rəhbərlərinə gələcək fəaliyyət istiqamətləri ilə bağlı müvafiq tapşırıq və tövsiyələr verilib.

# Elm və təhsil naziri təqaüddə olan qabaqcıl qadın təhsil işçiləri ilə görüş keçirib

**Martın 6-da elm və təhsil naziri Emin Əmrullayev 8 Mart — Beynəlxalq Qadınlar Günü münasibətilə təqaüddə olan bir qrup qabaqcıl qadın təhsil işçiləri ilə görüş keçirib.**










Görüşdə ümumi təhsil müəssisələrində uzun illər pedaqoji fəaliyyət göstərmiş müəllimlər və məktəb direktorları iştirak ediblər.

Nazir iştirakçıları bayram münasibətilə təbrik edərək qeyd edib ki, ömrünün ən məhsuldar illərini müəllimliyə və təhsil idarəçiliyinə həsr etmiş pedaqoqlar Azərbaycan təhsilinin inkişafında mühüm rol oynayıblar. Onların yetişdirdiyi minlərlə məzun bu gün cəmiyyətin müxtəlif sahələrində fəaliyyət göstərərək ölkənin inkişafına töhfə verir.

Emin Əmrullayev çıxışında Azərbaycan məktəbinin formalaşmasında və milli-mənəvi dəyərlərin yeni nəsillərə ötürülməsində qadın müəllimlərin xüsusi rolunu vurğulayıb. Nazir bildirib ki, qadın pedaqoqlar yalnız bilik ötürən müəllimlər deyil, həm də cəmiyyətin mənəvi dayaqlarından biri kimi gənc nəslin formalaşmasında iştirak edirlər.

Görüş zamanı müəllim peşəsinin nüfuzunun artırılması, pedaqoji fəaliyyətin cəmiyyət tərəfindən yüksək qiymətləndirilməsi və müəllimlərin sosial statusunun gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər barədə də məlumat verilib.

Nazir həmçinin uzun illər ərzində formalaşmış pedaqoji təcrübənin qorunmasının və gənc müəllimlərə ötürülməsinin təhsil sisteminin davamlı inkişafı üçün mühüm əhəmiyyət daşıdığını bildirib. Vurğulanıb ki, təqaüddə olan təcrübəli pedaqoqların mentorluq fəaliyyəti və məsləhətləri gənc müəllimlərin peşəkar inkişafına mühüm töhfə verə bilər.

Söhbət zamanı nazir son illərdə təhsil sahəsində həyata keçirilən islahatlar barədə də danışıb. O bildirib ki, bu islahatların əsas məqsədi təhsil sistemində keyfiyyətin yüksəldilməsi və müasir tələblərə cavab verməsidir. Bu prosesdə müəllimlərin peşəkarlığı, təşəbbüskarlığı və yeniliklərə açıq olması həlledici rol oynayır.

Görüş qarşılıqlı fikir mübadiləsi şəraitində davam edib, iştirakçıların fikirləri və təklifləri dinlənilib.

# Ölkə Prezidenti gənclərin inkişafına xüsusi diqqət yetirir






## Firudin Qurbanov

**"Dəyişən dünya üçün gənclərimiz sağlam bilikli, həm də lazımi təcrübə bacarıqlarına malik olmalıdırlar. Onların müasir texnologiyalardan istifadə bacarıqları olmalıdır. Ölkəmizdə gənclər üçün çox gözəl şərait yaradılıb. Ölkə Prezidenti gənclərin inkişafına xüsusi diqqət yetirir.**



## "Sabahın alimləri" XV Respublika layihə müsabiqəsinin qalibləri mükafatlandırılıb



**Martın 3-də "Sabahın alimləri" XV Respublika Layihə Müsabiqəsinin final mərhələsinin açılış mərasimi keçirilib.**

Giriş nitqi ilə çıxış edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov müsabiqə iştirakçılarını salamlayaraq gənc ixtiraçılara uğurlar arzulayıb. Nazir müavini layihənin əhəmiyyətini vurğulayaraq bildirib ki, gələcəyin alimləri ideyalarını real məhsula çevirmək və onların səmərəliliyini artırmaq üçün davamlı çalışmalıdırlar. Dünyada elm və texnologiya sahəsində mövcud trendlərə toxunan nazir müavini qeyd edib ki, gələcəyin əsas istiqamətlərindən biri süni intellektdir və müsabiqədə süni intellektlə bağlı layihələrin olması da sevindiricidir.

Daha sonra Təhsil İnstitutunun direktor müavini Fuad Qarayev çıxışında bildirib ki, müsabiqə artıq 15 ildir uğurla həyata keçirilir və hər il böyük maraqla qarşılanır. Fuad Qarayevin sözlərinə görə, layihənin əsas məqsədi şagirdlərdə elmə marağın artırılması və tədqiqat bacarıqlarının inkişaf etdirilməsidir. Qeyd olunub ki, son iki ilin qalibləri dünyanın nüfuzlu ali təhsil müəssisələrində təhsil alırlar və builki iştirakçıların da yüksək nəticələr əldə edəcəyinə inam böyükdür.

Fuad Qarayev XV müsabiqə ilə bağlı statistik göstəriciləri də diqqətə çatdırıb. Bildirilib ki, 9 istiqamət üzrə yarışan IX—XI sinif şagirdləri 126 məktəbi təmsil ediblər. Onlardan 42-si Bakı, 84-ü region, o cümlədən 10-u kənd məktəbidir. Müsabiqəyə ümumilikdə 760 layihə təqdim olunub. Seçim mərhələsinin nəticələrinə əsasən 127-si kollektiv, 25-i fərdi olmaqla ümumilikdə 152 layihə final mərhələsinə vəsiqə qazanıb.

Tədbirin bədii hissəsində İncəsənət Gimnaziyasının kamera ansamblı çıxış edib.

Final mərhələsi çərçivəsində növbəti iki gün ərzində şagirdlərin riyaziyyat, fizika və astronomiya, kimya, biologiya, tibb və sağlamlıq, ekologiya və ətraf mühitin idarə olunması, mühəndislik, kompüter elmləri, robototexnika və süni intellekt istiqamətləri üzrə elmi-tədqiqat layihələri dəyərləndirilib. Qaliblər arasından seçilən məktəblilər ABŞ-də keçirilən beynəlxalq sərgidə ölkəmizi təmsil edəcəklər.

Rəsmi hissədən sonra Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspora, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, elm və təhsil naziri Emin Əmrullayev, Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri Məleykə Abbaszadə, ARTİ-nin direktoru səlahiyyətlərini icra edən, elm və təhsil nazirinin müşaviri Elnur Əliyev, ali təhsil müəssisələrinin rektorları finalçıların layihələrinin nümayiş olunduğu sərgi ilə tanış olublar.

***

Martın 5-də Bakı Ali Neft Məktəbində "Sabahın alimləri" XV Respublika layihə müsabiqəsinin mükafatlandırma mərasimi keçirilib.

Tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Daha sonra müsabiqə çərçivəsində hazırlanan videoçarx nümayiş olunub.

Tədbirdə çıxış edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov bu cür müsabiqələrin istedadlı uşaqları aşkarlamağa, onların innovativ qabiliyyətini inkişaf etdirməyə kömək etdiyini qeyd edib, hər bir gəncin ölkənin yüksəlişinə töhfə verməli olduğunu vurğulayıb.

Dəyişən dünya üçün gənclərimizin həm bilikli, həm də lazımi bacarıqlara malik yetişdirilməsinin mühümlüyünü qeyd edən Firudin Qurbanov ölkə Prezidentinin gənclərin inkişafına xüsusi diqqət yetirdiyini bir daha nəzərə çatdırıb.

Çıxışında gənclərə tövsiyələrini səsləndirən Firudin Qurbanov qalibləri təbrik edib, onlara uğurlar arzulayıb.

Çıxış edən elm və təhsil nazirinin müavini Kənan Kərimzadə gənclərə onlar üçün yaradılan imkanları vaxtında dəyərləndirməyi, təqdim olunan resurslardan səmərəli şəkildə faydalanmağı tövsiyə edib.

Çıxışında "Sabahın alimləri" müsabiqəsinin ölkənin ən nüfuzlu müsabiqələrindən biri olduğunu vurğulayan Bakı Ali Neft Məktəbinin (BANM) rektoru Elmar Qasımov müsabiqənin rəhbərlik etdiyi təhsil ocağında keçirilməsini yüksək qiymətləndirib və qalibləri təbrik edib.

Tədbirin davamında qaliblərə medal və sertifikatlar təqdim olunub. İştirakçılar 16 qızıl, 35 gümüş, 56 bürünc medal olmaqla ümumilikdə 107 medal qazanıblar. Münsiflərin təsis etdiyi 6 ədəd "Xüsusi mükafat" da sahiblərinə verilib. Ən çox uğur qazanan layihələr ekologiya, fizika, riyaziyyat, kimya, robototexnika, sağlamlıq sahələrini əhatə edib.

Qeyd edək ki, "Sabahın alimləri" müsabiqəsi Elm və Təhsil Nazirliyi, Heydər Əliyev Mərkəzi, Təhsil İnstitutu, Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin təşkilatçılığı və tərəfdaşlığı ilə keçirilib.

Müsabiqənin əsas məqsədi ölkəmizdə fəaliyyət göstərən ümumi təhsil müəssisələrinin IX-XI siniflərində təhsil alan şagirdlərin elmi axtarışlara sövq edilməsi, onların elmi və yaradıcılıq fəaliyyətinin stimullaşdırılması çərçivəsində 9 istiqamət (riyaziyyat, fizika və astronomiya, kimya, biologiya, tibb və sağlamlıq, ekologiya və ətraf mühitin idarə olunması, mühəndislik, kompüter elmləri, robototexnika və süni intellekt) üzrə elmi tədqiqat işinə meyli olan istedadlı şagirdlərin aşkar olunmasıdır.

# Gənc beyinlərdən maraqlı ixtiralar

## "Sabahın alimləri"ndən REPORTAJ

**"Sabahın alimləri" XV Respublika Layihə Müsabiqəsi son bir neçə gündür ki, ölkənin elmi mühitində diqqət çəkən əsas tədbirlərdən biridir. Martın 3-də Bakıda təntənəli açılışla başlayan bu elm marafonu şagirdlərin öz layihələrini təqdim etdiyi geniş sərgi ilə davam etdi. Nəhayət ən həyəcanlı məqam gəlib çatdı, mükafatlandırma mərasimində ən yaxşılar seçildi.**



### Fundamental elmdən kosmik hədəflərə

Müsabiqənin elmi dərinliyi və laboratoriya tədqiqatlarının ağırlığı ilə seçilən bölməsində ADA məktəbinin XI sinif şagirdi, biologiya üzrə Respublika fənn olimpiadalarının qalibi Mehriban Səttarova öz sözünü deyir. Onun təqdim etdiyi və qızıl medala (I yer) layiq görülən layihə bitki hüceyrələrinin sirli dünyasına transmissiya elektron mikroskopiyasının gözü ilə baxmağa imkan verir.

Onun tədqiqat obyekti bitki biologiyasının ən mürəkkəb sahələrindən birini — diferensasiya olunmamış və sürətlə bölünən kallus hüceyrələrini əhatə edir. Mehriban xüsusilə sitokinin fitohormonunun bu hüceyrələrə histoloji və sitoloji səviyyədə təsirini araşdırıb. Gənc tədqiqatçı bu prosesi izləmək üçün ilk dəfə olaraq transmissiya elektron mikroskopiyasından istifadə edib. Bu da layihənin əsas innovativ tərəfidir. Gənc bu metodu sayəsində hüceyrə daxilində baş verən ən kiçik dəyişiklikləri belə vizuallaşdıraraq elmi baxımdan çox maraqlı və yenilikçi nəticələr əldə edib.

Daha əvvəl heç bir yerdə təqdim olunmayan bu fundamental iş müəllifinə qızıl medal qazandırmaqla yanaşı, həm də ABŞ-də keçiriləcək beynəlxalq sərgidə ölkəmizi təmsil etmək şansı yaradıb.

Mehriban gələcəkdə məhz biologiya üzrə peşəkar alim olmağı arzulayır.

Xəzər Universiteti nəzdində Dünya Məktəbinin IX sinif şagirdi Nuray Quliyeva və XI sinif şagirdi Nəcəf Orucov ekologiya sahəsində təqdim etdikləri innovasiya ilə qızıl medalın (I yer) sahibi olublar.

Onların "Dayanıqlı ətraf mühit üçün superabsorbent polimer dəstəkli süni intellekt əsaslı hidroponik texnologiya" adlanan layihəsi ənənəvi əkinçilik metodlarını tamamilə kənara qoyur. Şagirdlər torpaqsız əkinçiliyi "əşyaların interneti" (IoT) və süni intellektlə birləşdirərək insan müdaxiləsi olmadan bitki yetişdirilməsinə nail olublar. Sistemin əsas özəlliyi budur ki, süni intellekt bitkinin vəziyyəti barədə məlumatları serverə göndərir və fermerin real vaxt rejimində prosesi idarə etməsini təmin edir.

Nuray gələcəyini ekologiya, Nəcəf isə süni intellekt sahəsində görsə də, hər ikisinin ortaq hədəfi texnologiyanı təbiətin xidmətinə verməkdir.

Mühəndislik bölməsində texnoloji həllərin sərhədini genişləndirən növbəti qızıl medalın (I yer) sahibi isə Xəzər Universiteti nəzdində Dünya Məktəbinin IX sinif şagirdi Emil Babayevdir. Onun layihəsi müasir müdafiə sənayesi və robototexnika üçün kritik əhəmiyyət kəsb edən stabilizasiya sistemlərinə tamamilə yeni baxış gətirir.

Emilin təqdim etdiyi aktiv stabilizasiya sistemi mövcud analoqlarından özünün çoxşaxəli funksionallığı ilə fərqlənir. Əgər hazırkı sistemlərin əksəriyyəti sadəcə üfüqi sabitliyi təmin edirsə, gənc mühəndisin hazırladığı model süni intellekt və "sensor fusion" (sensorların sintezi) prinsipi ilə işləyir. Bu texnologiya sayəsində platforma kamera vasitəsilə təsviri oxuyur və altı ox üzrə çevik əks-hərəkətlər edərək mütləq tarazlığı qoruyur.

Emil qazandığı birincilikdən böyük qürur duyduğunu gizlətmir.

Müsabiqənin gümüş medalçılarından olan Oğuz şəhər 2 nömrəli liseyin X sinif şagirdləri Zəhra Məmmədzadə və Xədicə İbrahimovanın təqdim etdiyi layihə ilk baxışdan qeyri-adi görünür: alışdığımız nəhəng qanadlı külək turbinlərindən fərqli olaraq, bu qurğu tamamilə qanadsızdır.

Gənc tədqiqatçılar ideyanın mərkəzinə biomimetika prinsipini, yəni təbiəti təqlid etməyi qoyublar. Layihənin əsasını isə səhra bitkisi olan kaktusun quruluşu təşkil edir. Şagirdlər kaktusun qabırğalı (ribli) strukturunun külək axınını necə istiqamətləndirdiyini və sabitliyi necə artırdığını araşdıraraq 8 ribdən ibarət innovativ cihaz yaradıblar.

### Bəs əsas yenilik nədir?

Ənənəvi turbinlər fırlanma hərəkəti ilə enerji yaradırsa, bu qurğu yalnız titrəyiş əsasında işləyir. Bu isə o deməkdir ki, hətta çox zəif küləklərdə belə enerji istehsal etmək mümkündür.

Zəhra gələcəkdə həkim, Xədicə isə hüquqşünas olmağı arzulayırlar.

Daha bir gümüş medalın (II yer) sahibi olan layihə həm elmi dəqiqliyi, həm də qlobal aktuallığı ilə seçilir. Bakı Oksford Məktəbinin XI şagirdləri Gülzar İsayeva və Məryəm Cəfərli müasir texnologiyanın görünməyən tərəflərinə işıq salıblar.

Onların tədqiqat obyekti nanotexnologiyaların sürətli inkişafı ilə paralel olaraq yaranan ekoloji risklərdir. Şagirdlər tibb və sənayedə geniş istifadə olunan nanohissəciklərin su ekosistemlərinə sızması və orada yaşayan balıqların orqanizmində toplanması problemini araşdırıblar. Layihənin əsas xəbərdarlığı isə budur: nanohissəciklərlə çirklənmiş balıqlarla qidalanmaq insan sağlamlığı üçün ciddi bioakkumulyasiya, yəni orqanizmdə zərərli maddələrin toplanması riski yarada bilər.

Gənc tədqiqatçılar öz hipotezlərini laboratoriya şəraitində sınaqdan keçiriblər. Təcrübə aparılan 33 balıqdan 22-də nanohissəciklərin akkumulyasiyası və müəyyən struktur dəyişiklikləri qeydə alınıb ki, bu da irəli sürülən nəzəriyyənin kifayət qədər əsaslı olduğunu sübut edir.

Gülzar və Məryəm gələcəkdə həkim olmaq istədiklərini bildiriblər.

Müsabiqənin bürünc medalına layiq görülən daha bir perspektivli tədqiqat işi isə Qarabağın iki kəndindən gələn dostların birgə əməyinin məhsuludur. Ağdam rayonu Çəmənli kənd orta tam məktəbinin IX sinif şagirdi Dəniz Əlizadə və Ağdam rayonu Qaradağlı kənd tam orta məktəbinin IX sinif şagirdi Nuray Ağaməmmədli həm tibdə, həm də energetikada tətbiq oluna biləcək innovativ bir məhlul yaradıblar. İdeyanın qaynağı isə Dənizin nənəsinin şəfa məqsədilə istifadə etdiyi zəfəran ləçəklərinə söykənir. Ləçəyin üzərində su damcılarının yapışmadan yuvarlanıb getdiyini görən gənclər bu təbii xüsusiyyəti elmi müstəviyə daşımağa qərar veriblər.

Onlar zəfəran ekstraktını gümüş nanohissəciklərlə birləşdirib aloe vera bazasında xüsusi bir gel əldə ediblər. Bu ixtira eyni anda iki qlobal problemə həll təklif edir: tibbi alətlərdə infeksiya riskini azaldan antibakterial qat yaradır və günəş panellərində tozun yapışmasının qarşısını alır. Şagirdlərin apardıqları testlər nəticəsində məlum olub ki, bu gel sayəsində panellərin enerji səmərəliliyi 14,8% artır.

Bu iki gənc gələcəkdə ağ xalat geyinərək insanlara xidmət etməyi —həkim olmağı arzu edir.

Sərgi pavilyonunda gəzdikcə şahid olduğumuz bu iti zəka və böyük həvəs yaxın gələcəkdə beynəlxalq səviyyəli kəşflərin müjdəçisidir. İndi onların qarşısında daha böyük bir sınaq — ABŞ-də Azərbaycan elmini layiqincə təmsil etmək vəzifəsi dayanır, İnanırıq ki, bu günün şagirdləri sabahın böyük alimləri olacaqlar.

**Mərziyyə KAZIMZADƏ**

# Təhsilin bütün pillələrində gender bərabərliyinə xüsusi diqqət yetirilir



## Nazir müavini Firudin Qurbanov Milli Məclisdə gender bərabərliyinə həsr olunmuş ictimai dinləmədə çıxış edib



**Martın 4-də Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin təşkilatçılığı ilə “Qanunvericilikdə gender bərabərliyi: nailiyyətlər və perspektivlər” mövzusunda ictimai dinləmə keçirilib.**

Tədbiri giriş sözü ilə açan Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova ölkəmizdə 20 il əvvəl “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Qanunun qəbul edildiyini, bu sahədə ötən illər ərzində bir çox işlərin görüldüyünü, o cümlədən qanunvericiliyin təkmilləşdirildiyini bildirib.

Azərbaycanda gender bərabərliyinin təmin edilməsi və dövlət qadın siyasətinin həyata keçirilməsinin məhz Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu vurğulayıb. Ulu Öndərin bu sahə ilə bağlı imzaladığı bir çox fərman və sərəncamların qadın hüquqlarının müdafiəsi və təminatı istiqamətində mühüm əhəmiyyətini qeyd edib. O, əsası Ulu Öndər tərəfindən qoyulan bu siyasətin hazırda Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində daha da gücləndirilildiyini bildirib. 2006-cı ildə Prezident İlham Əliyev tərəfindən təsdiq edilən “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Qanunun ölkəmizdə gender bərabərliyinin təşviqi sahəsində atılmış mühüm addım kimi dəyərləndirib.

Sonra çıxış edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov qeyd edib ki, elm və təhsil sahəsində gender bərabərliyi cinsindən asılı olmayaraq bərabər hüquq və imkanların, əməyin obyektiv qiymətləndirilməsini nəzərdə tutur. F.Qurbanov nazirliyin strateji planında bu istiqamətdə qabaqlayıcı tədbirlərin həyata keçirilməsi üçün müxtəlif layihələrin reallaşdırıldığını diqqətə çatdırıb. Nazir müavini təhsilin bütün pillələrində gender bərabərliyinə xüsusi diqqət yetirildiyini, bu sahədə balanslaşdırılmış yanaşmanın tətbiq edildiyini, maarifləndirmə işlərinin aparıldığı vurğulayıb.

Qadınlar professor-müəllim heyətinin 64,5%-ni təşkil etsə də, rəhbər vəzifələrin 43, dekan və prorektor vəzifələrinin isə yalnız 31,5%-ni tuturlar.

Nazir müavini əlavə edib ki, orta ixtisas təhsili müəssisələrində vəziyyət yaxşıdır, müəllim heyətinin 81,2%, rəhbər vəzifələrin 63.9%-ni qadınlar tutur. 2025-ci il məlumatlarına görə, elmi təşkilatlarda qadın tədqiqatçılar 50,2% təşkil edir ki, bu da dünya orta göstəricisindən (41%) yüksəkdir. Lakin qadınlar daha az rəhbər vəzifələr tuturlar: “Ümumi orta təhsil müəssisələrində qadınlar 54.5% təşkil edir, bu göstərici 2021-ci ildə 49.3% olub. Bu, müsbət tendensiyanı göstərir. 2025-ci ildə ümumi orta təhsil müəssisələrinə 165 nəfər direktor, 282 nəfər direktor müavini təyin edilib”.

F.Qurbanov qeyd edib ki, Rəqəmsal maneələr rəqəmsallaşma şəraitində daha qabarıq görünür. Qızlar IT ixtisaslarını 1,5-2 dəfə az seçirlər. Bu da müəyyən stereotiplərlə bağlıdır.

Nazir müavini əlavə edib ki, təhsil maraqları qızlar və oğlanlar arasında müxtəlifdir:

“Araşdırmalar göstərir ki, dünya üzrə qadınlar STEAM (elm, texnologiya, mühəndislik, riyaziyyat) məzunlarının cəmi 35%-ni təşkil edir. Ölkəmizdə STEAM fənləri üzrə ali məktəblərdə tələbələr arasında qadınların payı 37,1%-i keçmir. Eyni zamanda, humanitar istiqamətlərdə bu göstərici 79,7%-ə çatır. Məlumdur ki, texniki ixtisaslar ənənəvi olaraq daha yüksək gəlir təmin edir. Bəzən qadınların təhsili və karyerası ailə öhdəliklərinə nisbətən ikinci dərəcəli kimi qəbul edilir. Qızların 76,4%-i humanitar sahələrə, oğlanların 62,8%-i (bütün tələblər arasından) isə texniki ixtisaslara yönəlir. Bu da ailədə və məktəbdə stereotiplərin mövcud olduğunu göstərir”.

Nazir müavini qeyd edib ki, Norveç və İsveç kimi Aİ ölkələrində ali məktəblərin rəhbər orqanlarında qadınlar üçün minimum 40% kvota tətbiq edilir və gender auditi aparılır. Nəticədə STEM sahəsində qadınların payı 45-50%-ə çatıb.

“Qanunvericilikdə “cinsə görə ayrı-seçkilik” anlayışının dəqiq müəyyən edilməməsi hüquqların müdafiə mexanizmini natamam edir. Yaxşı olardı ki, müvafiq məcəlləyə və “Təhsil haqqında” Qanuna dəyişikliklər edilsin və dəyişikliklər beynəlxalq standartları nəzərə almalıdır”.

Nazir müavini əlavə edib ki, əsas hüquqi maneə məsuliyyət boşluğudur: təhsil münasibətlərində cinsə görə ayrı-seçkilik müstəqil hüquq pozuntusu kimi ayrıca nəzərdə tutulmayıb: “İnstitusional maneələrə tədris proqramları və dərsliklərin məcburi gender auditinin olmamasını göstərmək olar. Tədqiqatlar göstərir ki, təbiət və ictimai elmlər üzrə məktəb dərsliklərində gender stereotipləri mövcuddur. Bütün tədris proqramları və dərsliklər üzrə gender ekspertizasının aparılması yaxşı olardı”.

F.Qurbanovun fikrincə, bütün cəmiyyətlərdə olduğu kimi, Azərbaycan cəmiyyətində də gender stereotipləri mövcuddur və əksər hallarda insanlar arasında münasibətlər bu stereotiplər əsasında formalaşır.

Tədbirdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova, daxili işlər nazirinin müavini İsmət Əliyev, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Hidayət Abdullayev və ədliyyə nazirinin müavini Toğrul Hüseynov çıxış ediblər.

Sonra elm və təhsil nazirinin müavini Firudin Qurbanov və Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova çıxışlarda qaldırılan məsələlərə münasibət bildiriblər.

# “Təhsildə yeni çağırışlar: keyfiyyətə baxış”




## Kənan Kərimzadə regional təhsil konfransında iştirak edib

**Fevralın 28-də Sumqayıt şəhərində “Təhsildə yeni çağırışlar: keyfiyyətə baxış” regional təhsil konfransı keçirilib.**

“Şəhərsalma və Memarlıq İli”nə həsr edilən konfrans “Təşkilati mədəniyyət” və “Məktəb mühitinin pedaqoji dizaynı” mövzularını əhatə edib.

Regional konfrans Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi, “T—Network” təhsil işçilərinin təcrübə və kommunikasiya platforması və Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının təşkilatçılığı, Elm və Təhsil Nazirliyi və Abşeron—Xızı Regional Təhsil İdarəsinin tərəfdaşlığı ilə reallaşıb.

300 təhsil işçisinin qatıldığı konfransda elm və təhsil nazirinin müavini Kənan Kərimzadə, Milli Məclisin deputatı Mehriban Vəliyeva, Abşeron-Xızı Regional Təhsil İdarəsinin müdiri İlhamə Abdullayeva, Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Teymur Səmədov, məktəbəqədər və ümumi təhsil müəssisələrinin rəhbərləri, direktor müavinləri, müəllimlər və psixoloqlar iştirak ediblər.

Abşeron-Xızı Regional Təhsil İdarəsinin müdiri İlhamə Abdullayeva konfrans iştirakçılarını salamlayaraq regionda təhsil sahəsində əldə olunan nəticələr haqqında məlumat verib. İdarə müdiri tədrisin keyfiyyətinin yüksəldilməsi, şagirdlərin cəmiyyətə, dövlətə faydalı vətəndaş kimi yetişməsi, idarəetmədə şəffaflıq və obyektivliyin təmin edilməsinin əsas prioritet məsələlərdən olduğunu diqqətə çatdırıb.

Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Teymur Səmədov çıxışında milli inkişafın təminatında təhsilin müstəsna rolu olduğunu dilə gətirərək belə bir tədbirin ikinci böyük sənaye şəhəri olmaqla yanaşı elm, təhsil və mədəniyyət mərkəzi hesab edilən Sumqayıtda keçirilməsindən məmnun olduğunu söyləyib.

Çıxış edən elm və təhsil nazirinin müavini Kənan Kərimzadə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin birbaşa dəstəyi ilə icra olunan dövlət strategiyaları, o cümlədən dövlət proqramları nəticəsində ölkədə genişmiqyaslı islahat tədbirlərinin həyata keçirilməsindən və bu islahat tədbirlərinin təhsil sahəsini də əhatə etməsindən bəhs edib.

Elm və təhsil nazirinin müavini bildirib ki, Azərbaycan təhsili yeni transformasiya mərhələsinə qədəm qoyub və bu işin mərkəzində məhz Azərbaycan müəllimi durur.

Daha sonra İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının təhsil və bacarıqlar üzrə direktoru Andreas Şleyxerin konfrans iştirakçılarına video-müraciəti nümayiş etdirilib.

Milli Məclisin deputatı Mehriban Vəliyeva “Azərbaycanın müasir mədəniyyət modeli üçün təhsildə mədəniyyət konsepsiyası” adlı təqdimatında “Azərbaycan Mədəniyyəti — 2040” Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyasına diqqət çəkərək milli-mənəvi dəyərlərə və qlobal çağırışlara cavab verən müasir mədəniyyət modelinin formalaşması məsələsinə toxunub.

Konfrans Azərbaycan Dövlət Pedaqoji Universitetinin prorektoru Könül Pirverdiyeva və Dövlət Proqramı çərçivəsində Harvard Universitetində təhsil siyasəti və təhlili üzrə magistratura pilləsinin məzunu Lalə Əliyevanın təqdimatları ilə davam edib.



Konfrans çərçivəsində "T-Network" təhsil işçilərinin təcrübə və kommunikasiya platformasının rəhbəri Cəfər Mənsiminin moderatorluğu ilə nazir müavini Kənan Kərimzadə ilə sual-cavab sessiyası keçirilib, iştirakçıların çoxsaylı sualları cavablandırılıb.

Qeyd edək ki, konfrans Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasının “Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı üzrə strateji çərçivəsi”-nə və “Azərbaycan Mədəniyyəti — 2040” Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyasına əsaslanıb.

Konfransın keçirilməsində əsas məqsəd qabaqcıl müəllimlərin və təhsil idarəedicilərinin təcrübəsini öyrənmək və təşviq etmək, səmərəli əməkdaşlığa təkan vermək və regional diskussiya platforması yaratmaqdır.

# ADNSU-da mühəndislik sahəsində qadınların rolu barədə tələbələrlə görüş keçirilib

**Martın 4-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) Məzunlarla iş və karyera mərkəzinin təşkilatçılığı ilə SOCAR Upstream Management International tərəfindən həyata keçirilən “Qadınların səlahiyyətləndirilməsi” (women empowerment) proqramı çərçivəsində yalnız qız tələbələr üçün “Qadınlar mühəndislikdə” mövzusunda görüş keçirilib.**



Sessiya zamanı mühəndislik sahəsində qadınların rolu, bu sahədə qarşılaşdıqları imkan və çağırışlar, eləcə də gələcək karyera perspektivləri barədə geniş müzakirələr aparılıb.

Sessiya SOCAR Upstream-in aparıcı proses mühəndisi Nuridə Məmmədova tərəfindən aparılıb. N.Məmmədova neft-qaz sektorunda 17 illik peşəkar təcrübəsini tələbələrlə bölüşərək mühəndislik sahəsində karyera qurmaq istəyən gənc xanımlara tövsiyələr verib.

Qeyd edək ki, tədbirin əsas məqsədi xanım tələbələri ruhlandırmaq, onların özünə inamını artırmaq, karyera perspektivlərini genişləndirmək, xüsusilə texniki sahələrdə qadınların rolunu və liderliyini təşviq etmək olub.

# MDU-da su üzrə yeni laboratoriya açılıb

**Mingəçevir Dövlət Universitetində Regional Su Mükəmməlliyi və Dayanıqlılıq Laboratoriyasının açılışı olub. Yeni laboratoriya su resurslarının elmi əsaslarla araşdırılması, praktik tədrisin gücləndirilməsi və region üzrə tətbiqyönümlü tədqiqatların genişləndirilməsi baxımından yeni imkanlar yaradıb.**



MDU-nun rektoru Anar Eminov bildirib ki, laboratoriyanın açılması universitetin elmi-tədqiqat və tətbiqi təhsil imkanlarının genişləndirilməsi baxımından mühüm mərhələdir. Su resursları ilə bağlı məsələlər bu gün həm ətraf mühit, həm ictimai sağlamlıq, həm də sosial-iqtisadi dayanıqlılıq kontekstində xüsusi aktuallıq daşıyır. Məhz buna görə suyun keyfiyyətinin elmi əsaslarla araşdırılması və nəticələrin daha dəqiq şəkildə əldə olunması üçün müasir laboratoriya mühitinin formalaşdırılması prioritet hesab olunur.

Yeni laboratoriya MDU-da yaradılmış Elmi Tədqiqat İnstitutunun nəzdində fəaliyyət göstərən Su və İstilik Enerjisi Tədqiqatları Qrupunun işi ilə uyğunlaşdırılıb. Burada su nümunələrinin götürülməsi, saxlanması və hazırlanması üzrə iş prosesləri qurulub, suyun əsas fiziki və fiziki-kimyəvi göstəricilərinin ölçülməsi və təhlili üçün zəruri avadanlıqlar yerləşdirilib.

Laboratoriyada suyun pH göstəricisinin, temperaturunun, elektrik keçiriciliyinin, sərtliyinin, bulanıqlığının müəyyənləşdirilməsi, eləcə də tərkib parametrlərinin qiymətləndirilməsi mümkündür. Analizlər zamanı təhlükəsizlik və keyfiyyət tələblərinə uyğun laborator yanaşmaların tətbiqi də nəzərdə tutulur.

Laboratoriya müəllimlər üçün sahə üzrə tədqiqatların daha sistemli aparılmasına, tələbələr üçün isə su və ətraf mühitlə bağlı fənlərin real laboratoriya mühitində öyrənilməsinə xidmət edəcək. Eyni zamanda, onun regional xarakter daşıması Mingəçevir və ətraf ərazilərdə su ilə bağlı laboratoriya araşdırmalarının aparılmasına, elmi əsaslı məlumatların toplanmasına və yeni əməkdaşlıqların formalaşmasına imkan yaradacaq.

# Dövlət Proqramı məzunları

**Fevralın 28-də Dövlət Proqramı İdarəetmə Qrupunun təşkilatçılığı ilə ADA Universitetində "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı" məzunları üçün "Qlobal təhsildən milli inkişafa" adlı karyera sərgisi keçirilib. Sərginin təşkilində əsas məqsəd Dövlət Proqramı çərçivəsində dünyanın aparıcı universitetlərində təhsil almış gənclərin milli əmək bazarına inteqrasiyasını təmin etmək və onların potensialını ölkəmizin dayanıqlı inkişafına yönəltməkdir.**

## "Qlobal təhsildən milli inkişafa"

### Xaricdə təhsil imkanı gənclərə əmək bazarında rəqabət üstünlüyü verir

Açılış mərasimində çıxış edən elm və təhsil nazirinin müavini Həsən Həsənli dövlətimizin insan kapitalına verdiyi önəmi xüsusi vurğulayıb. O qeyd edib ki, xaricdə təhsilə dair Dövlət Proqramı ölkəmizdə rəqabətədavamlı kadr potensialının formalaşdırılmasına yönəlmiş dövlət siyasətinin uğurlu nümunələrindən biri olmaqla yanaşı, gənclərin qazandığı beynəlxalq təcrübə Azərbaycanın gələcək inkişafının əsas hərəkətverici qüvvələrindən hesab olunur.

ADA Universitetinin prorektoru, Milli Məclisin Elm və təhsil komitəsinin sədr müavini Fariz İsmayılzadə məzunlara müraciət edərək onların beynəlxalq mühitdə əldə etdikləri akademik nailiyyətlərin yerli qurumların fəaliyyətinə yeni və mütərəqqi yanaşmalar gətirəcəyinə əminliyini ifadə edib.

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Rəşad Mustafayev isə Dövlət Proqramı məzunlarının əmək bazarında rəqabət üstünlüyünə malik olduqlarını bildirib və onlar üçün yaradılan əlverişli məşğulluq perspektivlərindən söz açıb.





Rəsmi hissənin ardınca açıq elan olunan karyera sərgisində 40-dan çox nüfuzlu dövlət və özəl qurum təmsil olunub. Sərgidə iştirak edən 90-dan artıq DP məzunu birbaşa işəgötürənlərlə ünsiyyət qurmaq, CV-lərini təqdim etmək və gələcək karyera imkanlarını müzakirə etmək fürsəti əldə ediblər.

Xaricdə təhsil imkanı gənclərə əmək bazarında rəqabət üstünlüyü verir. Fürsətdən istifadə edərək sərgidə DP məzunlarından bir qrupu ilə söhbətləşərək xaricdə təhsil proqramlarının yaratdığı imkanlar və karyera sərgisində gözləntiləri ilə bağlı təəssüratlarını öyrəndik.



### Gənclərə göstərilən etimad və dəstəyin gözəl nümunəsi



Şəbnəm Tağıyeva, Oksford Universitetinin məzunu

- Ötən ilin noyabr ayında Oksford Universitetindən "İctimai siyasət" ixtisası üzrə məzun oldum. Sonra qısa bir müddət Şeffild Universiteti ilə birlikdə süni intellekt sahəsində, xüsusilə də süni intellektin təhsil sahəsinə tətbiqinə dair qısa bir tədqiqat aparmaq imkanım oldu. Hazırda ölkəmə qayıtmışam və artıq növbəti mərhələdə iş imkanlarını nəzərdən keçirirəm. Bu gün də Dövlət Proqramı məzunları üçün karyera sərgisində iştirak edirəm. Burada bizə həm dövlət, həm də özəl qurumlarla ünsiyyət qurmaq və iş imkanlarını nəzərdən keçirmək üçün imkan yaradılıb. Düşünürəm ki, bu, çox gözəl təşəbbüsdür.

Bu, biz gənclərə xaricdə təhsil istiqamətində, həmçinin sonrakı mərhələdə karyera sahəsində Dövlət Proqramı məzunlarına göstərilən etimad və dəstəyin çox gözəl bir nümunəsi və göstəricisidir.

Mənim əvvəlki ixtisasım hüquqşünaslıqdır. Bakı Dövlət Universitetində hüquqşünaslıq üzrə təhsil almışam. Daha sonra ictimai siyasət üzrə Oksford Universitetində təhsil alaraq öz biliklərimi daha da genişləndirmək imkanım oldu. İctimai siyasət daha interdisiplinar xarakter daşıyır, iqtisadiyyat, fəlsəfə, hüquq, siyasət - müxtəlif mövzularda biz dərslər götürmüşük, bütün bunlar perspektivlərimi daha da genişləndirməyə imkan yaradıb. Gələcəkdə, düşünürəm ki, məhz bu öyrəndiyim bilikləri, bacarıqlarımı daha yaxşı tətbiq edə biləcəyəm. Eyni zamanda nəzərə alsaq ki, bu gün ölkəmizdə süni intellekt (Sİ) sahəsində artıq bir çox işlər həyata keçirilir. Sİ-nin istənilən - istər dövlət, istərsə də özəl sahədə tətbiqi artıq qaçılmazdır. Mən də süni intellekt sahəsində apardığım tədqiqatdan da yararlanmaqla hüquq sistemi və ictimai siyasət sahələrinin kəsişməsində öz fəaliyyətimi görmək istəyirəm. Düşünürəm ki, hər bir halda bu, həm özümə, həm də cəmiyyət üçün faydalı olan bir istiqamətdə olmalıdır. Bugünkü karyera sərgisində də iştirak növbəti karyera mərhələsi və imkanlarım barədə qərar verməkdə mənə daha da yaxşı kömək olacaq. Gənclərimizə də onu demək istəyirəm ki, Dövlət Proqramının artıq növbəti mərhələsi üzrə müraciətlər başlayır, onları da bu fürsətdən yararlanmağa və öz gələcək karyeraları haqqında ciddi düşünməyə çağırıram.

### "Karyera sərgisinin təşkilini yüksək qiymətləndirirəm"



Elvin Alıyev, "University College London"un məzunu

- Mən xaricdə təhsil Dövlət Proqramı çərçivəsində 2024-2025-ci illərdə Böyük Britaniyanın "University College London" ali təhsil müəssisəsində "İctimai siyasət" ixtisası üzrə magistr təhsili almışam və hazırda dövlət proqramının məzunu olaraq burada karyera sərgisində iştirak edirəm. Bundan əvvəl də eyni ixtisas üzrə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında təhsil almışam.

Xaricdə təhsil üzrə Dövlət Proqramı barədə onu deyə bilərəm ki, bu layihə azərbaycanlı gənclərin inkişafı üçün olduqca böyük bir fürsətdir. Bu fürsətin yaranması üçün Prezident İlham Əliyevə, Elm və Təhsil Nazirliyinə, Dövlət Proqramı İdarəetmə Qrupuna təşəkkürlərimi bildirirəm. Dövlət Proqramı sayəsində Azərbaycana verəcəyim töhfələri, ölkəmizdə tətbiq etmək istədiyim yenilikləri qeyd edərək müsabiqədə iştirak etdim və xaricdə təhsil almaq hüququ qazandım. DP məzunları üçün bu karyera sərgisinin təşkilini yüksək qiymətləndirirəm. Bu, həm dövlət, həm özəl qurumların xaricdə təhsilə önəm vermələrini, Azərbaycanda gənclərə verdikləri diqqəti və xarici təcrübənin, yeni innovasiyaların tətbiqinə verdikləri yüksək dəyəri göstərir. Buna görə də mən bir daha sərgi təşkilatçılarına təşəkkürlərimi bildirirəm.

### "Bir neçə şirkət mənimlə əlaqə saxlayacaqlarını bildirdi"



Əli Məmmədov, London Universitet Kollecinin məzunu

- "Mən Böyük Britaniyanın London Universitet Kollecində (UCL) "Kimya mühəndisliyi" ixtisası üzrə magistr təhsili almışam. 6 aydır ki, təhsilimi bitirərək ölkəmə qayıtmışam. Bugünkü tədbirdə mən neft sahəsində tanınan iri qurumlardan olan "SOCAR Polimer" şirkəti ilə tanış olmağa nail oldum. Bundan başqa, Energetika Nazirliyinin əməkdaşları ilə söhbətləşdim. Dövlət Neft Fondunun əməkdaşları ilə də ünsiyyət qurdum, onlar məndən CV-mi istədilər, mənimlə əlaqə saxlayacaqlarını bildirdilər. Ümumiyyətlə, bu tədbirin təşkilinə görə Dövlət Proqramı İdarəetmə Qrupuna təşəkkür edirəm.

Eyni zamanda xaricdə təhsil almağıma imkan yaratdığına görə ölkə rəhbərliyinə dərin minnətdarlığımı bildirirəm. İxtisasım kimya mühəndisliyidir. UCL-də təhsilim dövründə qısa müddət ərzində heç vaxt tanış olmadığım bir məsələni sıfırdan anlayıb sona çatdırmağı öyrəndim. Bu yanaşma real iş təcrübəsinə çox yaxındır. Burada hər gün yeni layihələr olur, yeni problem məsələlərə baxılır, onları həll etməlisən. Bundan başqa, London dünyanın tələbə həyatı, turistlər üçün cəlbedici şəhərdir. Təhsilimi məhz Londonda almaq mənim üçün inanılmaz bir təcrübə oldu.

### "İnsan kapitalı dövlətin sütunudur"



Məğrur Məmmədli, Şeffild Universitetinin məzunu

- Mən "2022-2028 Dövlət Proqramı" çərçivəsində Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının "University of Sheffield" ali təhsil müəssisəsində "İnformasiya sistemləri" ixtisası üzrə magistratura təhsilimi fərqlənmə ilə bitirmişəm.

Xaricdə təhsil təcrübəsi, ilk növbədə, fərqli ölkənin adət-ənənələri ilə tanışlıqdır: bu ölkələrdə uzun illər formalaşmış təhsil ənənələri var. Xaricdə təhsil aldığın müddətdə nəinki fərqli akademik biliklərə yiyələnir, eyni zamanda bir şəxs olaraq fəqli sahələr üzrə formalaşırsan. Bu, şəxsən mənə və eləcə də digər DP məzunlarına çox keyfiyyətlər qazandırır. İnsan kapitalı dövlətin sütunudur. Dövlət də yetəri qədər öz gənc nəslinə investisiya qoyur, bu investisiyanın məqsədi ölkədə gələcək fərqli sahələrdə töhfə verib bu biliyi artırmaqdır. Çünki dünya qloballaşır, qloballaşma yeni sahələrin inkişafına yol açır, bu tempi tutmaq çox çətindir. Dövlət siyasətini buna əsasən formalaşdırır. Yeni məzun olan gənclər arasında süni intellekt, kimya mühəndisliyi, çox spesifik sahələrdə məzun olan gənclərimiz çoxdur. Onlar ölkənin gələcək elmi-texnoloji inkişafına böyük töhfələr verəcək. Bakalavr təhsilimi maliyyə, biznesin idarə olunması ixtisası üzrə ADA Universitetində təhsil almağıma baxmayaraq hazırda IT təhsili üzrə dövlət vəsaiti hesabına təhsil alıram. Eyni zamanda kibertəhlükəsizlik üzrə proqramı üzrə təhsil almışam. Bu mənə əlavə IT bilikləri qazandırıb.

Bugünkü tədbirdə Elm və Təhsil Nazirliyinin, eləcə də digər qurumların rəhbər nümayəndələri iştirak edirlər. Onlar maksimum dərəcədə gənclərə fərdi yanaşaraq onları fərqli iş sahələrində yerləşdirməyə çalışırlar. Bu, gənclər üçün böyük fürsətdir. Mən buradan böyük təəssüratla ayrılıram.

**Oruc MUSTAFAYEV**

# 250 tələbəyə “Həmkarlar ittifaqı təqaüdü” təqdim olunub

## Proqram tələbələr arasında sağlam rəqabət mühiti formalaşdırır



**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) üzv təşkilatı Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqı (ETİHİ) Respublika Komitəsi 250 tələbəyə “Həmkarlar ittifaqı təqaüdü”nü təqdim edib.**

Tədbirdə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının, üzv və tabe təşkilatların rəhbərliyi, ölkənin bir sıra ali təhsil müəssisələrinin rektorları, tələbə həmkarlar ittifaqı komitələrinin sədrləri, tələbələr iştirak ediblər.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb, Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfederasiya sədrinin müavini Musa Mirzəyev çıxışında bildirib ki, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlətimizin gənclər siyasəti gənclərin milli-mənəvi dəyərlər ruhunda formalaşmasına, keyfiyyətli təhsil almasına və cəmiyyətin fəal üzvünə çevrilməsinə geniş imkanlar yaradıb.

Qeyd olunub ki, ölkə başçısı İlham Əliyevin rəhbərliyi ilə gənclərin potensialının reallaşdırılması, onların yüksəkixtisaslı kadr kimi formalaşması və ictimai-siyasi həyatda rolunun artırılması istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın gənc nəslin inkişafına verdiyi töhfələr, Heydər Əliyev Fondu tərəfindən icra olunan layihələrin təhsil, mədəniyyət, idman və digər sahələrdə gənclərin imkanlarını genişləndirdiyi də vurğulanıb.

Çıxışda daha sonra gənclərin sosial müdafiəsinin gücləndirilməsi, əmək hüquqlarının qorunması və potensialının inkişaf etdirilməsi istiqamətində AHİK tərəfindən həyata keçirilən sistemli tədbirlər barədə məlumat verilib. Bildirilib ki, akademik göstəriciləri yüksək olan və tələbə həmkarlar ittifaqı hərəkatında fəal iştirak edən gənclər üçün nəzərdə tutulan “Həmkarlar ittifaqı təqaüdü” proqramı bu istiqamətdə uğurlu təşəbbüslərdən biridir. Proqram tələbələr arasında sağlam rəqabət mühiti formalaşdırır və onları daha yüksək nəticələr əldə etməyə təşviq edir.

Tədbirdə çıxış edən elm və təhsil nazirinin müavini Kənan Kərimzadə təhsil sahəsində həyata keçirilən islahatlardan danışaraq müasir təhsil sisteminin gənclərin bilik və bacarıqlarının, eləcə də yaradıcılıq qabiliyyətinin inkişafına xidmət etdiyini bildirib. Nazir müavini “Həmkarlar ittifaqı təqaüdü” proqramının tələbələrin motivasiyasının artırılmasında mühüm rol oynayacağını diqqətə çatdırıb.

Çıxış üçün söz alan Azərbaycan Memarlıq və İnşaat Universitetinin Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Şahmar Rəfili gənclərin həmkarlar ittifaqları sıralarında fəallığından, onların istirahət və asudə vaxtının səmərəli təşkili istiqamətində görülən işlərdən danışıb.

Tədbir çərçivəsində AHİK tərəfindən həmkarlar ittifaqları sistemində aparılan islahatları, həyata keçirilən layihələri və tətbiq olunan yenilikləri əks etdirən videoçarx nümayiş olunub.

Sonda 2024-2025-ci tədris ilinin yay imtahan sessiyasının nəticələrinə əsasən yüksək akademik göstəricilər göstərən və tələbə həmkarlar ittifaqı hərəkatında fəal iştirak edən 250 tələbəyə “Həmkarlar ittifaqı təqaüdü” təqdim olunub.

**Samirə KƏRİMOVA**

# TəhsilPlus kartının təhsil işçilərinə təqdim olunmasına başlanılıb

## Təhsil işçiləri üçün vahid, çoxfunksiyalı və uzunmüddətli həll yaradılıb

**Təhsilin İnkişafı Fondu, Kapital Bank və “Mastercard” şirkətinin birgə əməkdaşlığı ilə hazırlanmış TəhsilPlus kartının tətbiqində növbəti mərhələyə start verilib.**





Martın 4-də keçirilən “TəhsilPlus kartı: təhsil işçiləri üçün yeni imkanlar” adlı tədbirdə üç dövlət qurumu ilə kartın təhsilin bütün pillələrində çalışan təhsil işçilərinə təqdim olunmasını nəzərdə tutan əməkdaşlıq sənədləri imzalanıb. Tədbir dövlət qurumlarının rəhbər şəxsləri, tərəfdaş təşkilatların nümayəndələri və media təmsilçilərinin iştirakı ilə keçirilib.

Açılış nitqi ilə çıxış edən Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Nicat Məmmədli bildirib ki, Fond fəaliyyətini dövlət-özəl tərəfdaşlığının genişləndirilməsi, innovativ layihələrin təşviqi və təhsil müəssisələrinin davamlı dəstəklənməsi prinsipləri əsasında qurur. Nicat Məmmədlinin sözlərinə görə, TələbəPlus kartından sonra TəhsilPlus kartının istifadəyə verilməsi bu strategiyanın davamıdır və təhsil işçiləri üçün vahid, çoxfunksional həll təqdim edir.

Tədbirdə elm və təhsil nazirinin müavini Kənan Kərimzadə təhsil sistemində aparılan islahatların əsas hədəfinin müəllimlərin sosial rifahının və peşəkar motivasiyasının gücləndirilməsi olduğunu ifadə edib. Nazir müavini bildirib ki, TəhsilPlus layihəsi ölkə üzrə yüz minlərlə təhsil işçisini vahid çoxfunksiyalı platforma ətrafında birləşdirərək onların sosial təminat imkanlarını genişləndirəcək, əlavə güzəşt və üstünlüklər təqdim edəcək. Kənan Kərimzadə vurğulayıb ki, bu təşəbbüs təhsil siyasətində insan amilinə verilən önəmin real ifadəsidir.

Kapital Bank-ın İdarə Heyəti sədrinin müavini, Baş Korporativ satış inzibatçısı Fərid Hidayətzadə çıxışında layihənin önəmindən danışıb. O qeyd edib ki, TəhsilPlus kartı ilə minlərlə təhsil işçisi üçün vahid, çoxfunksiyalı və uzunmüddətli həll yaradılıb. Təqdim edilən güzəştlər, bonus imkanları və tərəfdaş şəbəkəsi onların gündəlik həyatına real töhfə verəcək. Bu layihənin önəmli tərəflərindən biri də onun dövlət-özəl tərəfdaşlığı modeli əsasında qurulmasıdır.

“Mastercard” şirkətinin Biznesin inkişafı üzrə vitse-prezidenti Engin Yaşar innovasiyanın inklüzivliklə paralel şəkildə inkişaf etməsinin vacibliyini vurğulayıb. Engin Yaşar bildirib ki, TəhsilPlus kartı rəqəmsal texnologiyaların təhsil işçilərini təhlükəsiz, çoxfunksiyalı və gələcəyə yönəlik həllərlə gücləndirərək real və davamlı təsir yaratmasının bariz nümunəsidir. Engin Yaşar Azərbaycandakı güclü tərəfdaşlıqlar vasitəsilə maliyyə inklüzivliyini dəstəkləməyə və müasir ödəniş ekosistemlərinə çıxışı genişləndirməyə davam etdiklərini qeyd edib.

Rəsmi çıxışların ardınca, TəhsilPlus kartına həsr olunmuş videoçarx nümayiş olunub. Çarxda kartın dizaynı, funksionallığı, tərəfdaş şəbəkəsi üzrə təqdim edilən güzəşt və bonus imkanları, həmçinin “Mastercard Priceless Specials” proqramı çərçivəsində tətbiq olunan endirimlər əks etdirilib.

Daha sonra Fondun Layihələrin idarə olunması şöbəsinin müdiri Rəsul Həşimov TəhsilPlus kartının tətbiq mexanizmi və funksional imkanları barədə geniş təqdimatla çıxış edib. Tədbirdə iştirak edən korporativ tərəfdaşlara layihəyə qoşulmaqla bağlı çağırış olunub və onların dəstəyinin təhsil işçiləri üçün yaradılan imkanların daha da genişlənməsinə töhfə verəcəyi qeyd edilib.

Tədbir çərçivəsində Təhsilin İnkişafı Fondu ilə Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi, Peşə Təhsili üzrə Dövlət Agentliyi və Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi arasında əməkdaşlıq sənədləri imzalanıb. İmzalanmış sənədlər TəhsilPlus kartının təhsilin bütün pillələrində tətbiqinin təmin olunmasına xidmət edir.

Sonda sertifikatlaşdırma imtahanlarında yüksək nəticə göstərmiş, fəaliyyətləri ilə seçilən müəllimlərə TəhsilPlus kartları təqdim olunub. Müxtəlif fənlər üzrə Bakı şəhəri və Abşeron-Xızı Regional Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən ümumi təhsil müəssisələrinin müəllimləri kartın ilk istifadəçiləri olublar.

# Aqrar sahədə ixtisaslı kadr hazırlığı gücləndirilir



**Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi ilə Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi arasında birgə əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.**

Memorandumun imzalanma mərasimində çıxış edən elm və təhsil nazirinin müavini Kənan Kərimzadə müasir aqrar texnologiyaların tətbiqinin və istehsalatla təhsilin inteqrasiyasının peşə təhsilinin keyfiyyətini yeni mərhələyə yüksəldəcəyini bildirib. Vurğulayıb ki, bu əməkdaşlıq innovativ yanaşmaların genişlənməsinə və dayanıqlı inkişafın təmin olunmasına xidmət edəcək.

Kənd təsərrüfatı nazirinin müavini Zaur Əliyev çıxışında əməkdaşlığın aqrar sektorun davamlı inkişafına, insan kapitalının daha da möhkəmlənməsinə və ölkənin ərzaq təhlükəsizliyinin gücləndirilməsinə mühüm töhfə verəcəyini vurğulayıb.

Memorandumu Aqrar Xidmətlər Agentliyinin sədri Sərdar Hacıyev və Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru İlqar Bayramlı imzalayıblar.

Sənədin imzalanmasında əsas məqsəd aqrar sahədə peşə hazırlığının səmərəliliyini artırmaq, rəqabətqabiliyyətli və ixtisaslı kadrların hazırlanmasına nail olmaq, peşə təhsilini aqrar sahənin real ehtiyaclarına uyğunlaşdırmaq, eləcə də regionlarda dayanıqlı inkişafı dəstəkləməklə peşəkar kadr hazırlığını gücləndirməkdir.

Memoranduma əsasən, tərəflər aqrar sahə üzrə ixtisaslı kadrların hazırlanması və onların rəqabət qabiliyyətinin artırılması istiqamətində birgə fəaliyyət göstərəcəklər. Həmçinin peşə təhsili müəssisələrinin tələbələrinin laboratoriya, baytarlıq, bitki mühafizəsi və kənd təsərrüfatı texnikası sahələrində praktiki bilik və bacarıqlar əldə etməsi üçün müvafiq şərait yaradılacaq.

Eyni zamanda, aqrar texnologiyaların tətbiqi üzrə birgə layihələrin həyata keçirilməsi, müasir yanaşmaların təşviqi və sahə üzrə əmək bazarının tələblərinə uyğun kadr hazırlığının təmin olunması da əməkdaşlığın əsas istiqamətləri sırasında yer alır.

Qeyd edək ki, əməkdaşlıq aqrar sahədə peşə təhsilinin yeni mərhələyə qədəm qoyması baxımından mühüm əhəmiyyət daşıyır və gələcəkdə sektorun inkişafına mühüm töhfə verəcəyi gözlənilir.

# Elmi nəşrlər universitetin akademik nüfuzunun formalaşmasında mühüm rol oynayır

**Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) “Magistrant” dövri-elmi jurnalının 30-cu nömrəsi nəşr edilib.**





Bu münasibətlə keçirilən tədbirdə universitetin rektoru professor Cəfər Cəfərov ADPU-da elmi-tədqiqat fəaliyyətinin prioritet istiqamətlərdən biri olduğunu vurğulayıb. Rektor ali təhsil müəssisəsində elmi potensialın gücləndirilməsi, magistrantların və gənc alimlərin tədqiqatlara cəlb olunması, onların elmi nəticələrinin nəşri və geniş elmi ictimaiyyətə çatdırılmasının əhəmiyyətindən danışıb.

C.Cəfərov qeyd edib ki, elmi nəşrlər universitetin akademik nüfuzunun formalaşmasında, elmi məktəblərin inkişafında və beynəlxalq əməkdaşlığın genişlənməsində mühüm rol oynayır. Rektor “Magistrant” jurnalının bu istiqamətdə mühüm platformaya çevrildiyini bildirərək, jurnalın 30-cu nömrəsinin işıq üzü görməsini əlamətdar hadisə kimi dəyərləndirib.

Sonra ADPU-nun elm və innovasiyalar üzrə prorektoru, “Magistrant” dövri-elmi jurnalının baş redaktoru professor Asəf Zamanov jurnalın yaranma tarixi və inkişaf mərhələləri barədə ətraflı məlumat verib.




Qeyd olunub ki, beynəlxalq standart seriya nömrəsinə malik nəşrdə təkcə ADPU-nun magistrantları deyil, ölkənin müxtəlif ali təhsil müəssisələrinin, elmi-tədqiqat institutlarının, eləcə də xarici ölkə universitet və elmi qurumlarının magistrantlarının məqalələri dərc edilir. Statistik təhlillər göstərir ki, məqalələrin əhəmiyyətli hissəsi ADPU-nun payına düşsə də, digər universitetlərin, o cümlədən respublikanın aparıcı ali təhsil müəssisələrinin, habelə Türkiyə, Ukrayna və Qazaxıstan kimi ölkələrin universitetlərinin magistrantları da jurnalda fəal təmsil olunurlar. Jurnalda Azərbaycan, türk, rus və ingilis dillərində məqalələr dərc edilir və bu çoxdilli format onun beynəlxalq elmi ictimaiyyətə inteqrasiyasını gücləndirir.

Tədbirdə digər çıxış edənlər “Magistrant” jurnalının gənc tədqiqatçıların elmi yaradıcılığının stimullaşdırılmasında, onların ilk elmi addımlarının dəstəklənməsində və elmi nəticələrinin ictimailəşdirilməsində mühüm rol oynadığını söyləyiblər.

Daha sonra jurnalın inkişaf perspektivləri, beynəlxalq əməkdaşlıq imkanları və elmi keyfiyyət standartlarının təkmilləşdirilməsi məsələləri üzrə fikir mübadiləsi aparılıb.

# Virtual oyunlar və psixoloji təsirlər:

## Uşaqlarımız artıq həyətdə yox, ekran arxasında böyüyürlər



**Axşam saat səkkizdir. Ana mətbəxdən səslənir: “Yemək hazırdır!”. Otaqdan isə cavab gəlmir. Çünki uşaq başqa bir dünyada — virtual döyüş meydanında, sürətli avtomobil yarışında və ya rəqəmsal şəhər quruculuğundadır. O, fiziki olaraq evdədir, amma zehni min kilometrlərlə uzaqda, ekranın içində yaşayır.**

**Bir zamanlar uşaqların ən böyük macərası həyətdə gizlənpaç oynamaq, futbol və ya ip atlama idi. İndi isə onların oyunları piksel və kodlardan ibarət dünyalarda baş verir. Dostluqlar qulaqcıq arxasında qurulur, qələbələr idarəetmə qurğusundan istifadə edilməklə qazanılır, məğlubiyyətlər isə restart düyməsi ilə unudulur.**

**Bəli, XXI əsrin uşaqları artıq həyətdə yox, ekran arxasında böyüyürlər. Onların dostları bəzən qonşu uşaqlar deyil, dünyanın müxtəlif ölkələrindən qoşulan anonim oyunçulardır. Rəqəmsal texnologiyalar, xüsusilə virtual oyunlar, müasir uşaqlığın ayrılmaz hissəsinə çevrilib.**

**Bu oyunlar bir tərəfdən yaradıcılığı və məntiqi inkişaf etdirir, digər tərəfdən isə asılılıq, sosial uzaqlaşma və emosional problemlər riski yaradır. Bəs valideynlər bununla bağlı nə etməlidirlər? Rəqəmsal dünya düşməndirmi, yoxsa düzgün idarə olunarsa, faydalı vasitədirmi? O, uşaqların fikir dağınılığına, eləcə də IQ səviyyəinə təsir edirmi?**

**“Azərbaycan müəllimi” mövzunu IT üzrə mütəxəssis və psixoloqla araşdırıb.**

### Ən faydalı oyundan istifadə belə bütün normaları keçirsə...

Müasir dövrdə rəqəmsal dünyanın hər bir fərdin, o cümlədən uşaqların inkişafına birbaşa təsir etdiyini söyləyən Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında İctimai Şuranın üzvü, ekspert Fərid Kazımov alət seçimindən və kontekstdən asılı olaraq texnologiyaların təsirinin müsbət, yaxud mənfi ola bildiyini deyir:

“Bu suala birmənalı cavab vermək çətindir. Düzgün seçilmiş virtual oyunlar strateji düşüncə, reaksiya sürəti, komanda işi və problem həlletmə bacarığını inkişaf etdirir. Bundan əlavə, oyun əsaslı (gamification) alətlər vasitəsilə tədris həllərinin effektivliyi dəfələrlə artır. Məsələn, xarici dillər öyrədən və gündə 30-35 milyon istifadəçisi olan qlobal məşhur "Duolingo" platformasının tədris modelinin əsasında oyun elementləri geniş istifadə edilir. Digər nümunə kimi faydalı olan strateji oyunları, insan intellektini inkişaf etdirmək üçün movcud həlləri də göstərmək olar. Amma yanlış və nəzarətsiz olaraq oyunlardan istifadə diqqət dağınıqlığı, asılılıq və emosional qeyri-sabitlik yarada bilər. Nəticə texnoloigiyanın istifadə kontekstindən birbaşa asılıdır. Bilirsiniz, problem texnologiyada deyil, istifadə mədəniyyətindədir. Başa düşməliyik ki, hətta ən faydalı olan oyundan istifadə belə bütün normaları keçirsə, bu, artıq uşaq həyatı üçün təhlükə yaradır. Və istifadə mədəniyyətində son illər kəskin mənfi trend vardır və psixiatriya elmi hətta asılılğa gətirən bu aludəliyi ayrıca bir xəstəlik kimi müəyyən etmişdir”.

### Yaş məhdiyyəti ilə bağlı ölkələrin təcrübəsi

Fərid Kazımovun sözlərinə görə, yaş məhdudiyyəti fərdi və dəyişən məhfumdur. Uzun illər sosial şəbəkələrdə icazə verilən yaş məhdudiyyəti 2025-ci ildən etibarən bəzi ölkələrdə daha da ciddiləşdib. Məsələn, Avstraliyada sosial şəbəkələrdən istifadəyə icazə yalnız 16 yaşından sonra verilir. Böyük Britaniyada bir çox saytlara giriş yalnız sənəd, yaxud üzün skan edilməsi yolu ilə mümkün olur: “Bu trendlər göstərir ki, dövlət virtual məkanda uşaqları qorumaq funksiyasını tədricən öz üzərinə götürür və zənnimcə bu trend davam edəcəkdir. Virtual oyunlarda da tətbiq edilən məhdudiyyət sistemi vardır, amma bunu başa düşmək lazımdır ki, PEGI (yaş məhdudiyyəti sistemləri) texniki bloklama deyil, tövsiyə xaraketrlidir. Buna görə də valideyn nəzarəti istənilən halda olmaldır. Bu nəzarət, əlbəttə ki, uşağın mümkün çıxışı olan onlayn ödənişlərə də aid edilməlidir”.

### Uşaq gözləməkdə, səbir etməkdə və emosiyalarını idarə etməkdə çətinlik yaşaya bilər

Psixoloq qeyd edir ki, psixoloji inkişaf baxımından ən həssas mərhələlər ibtidai məktəb dövrü və yeniyetməlikdir. Bu dövrlərdə beynin ön payı-planlama, impuls nəzarəti və qərarvermədən məsul olan sahələr hələ tam formalaşmayıb. Buna görə də uzunmüddətli ekran istifadəsi uşağın özünü tənzimləmə bacarığını zəiflədə bilər. Uşaq gözləməkdə, səbir etməkdə və emosiyalarını idarə etməkdə çətinlik yaşaya bilər.

Uşağın temperament xüsusiyyətləri də rəqəmsal təsirin dərəcəsini müəyyən edir. İntrovert uşaqlar üçün virtual mühit təhlükəsiz zona rolunu oynaya bilər, çünki burada rədd edilmə riski azdır. Hiperaktiv və impulsiv uşaqlar isə sürətli, yüksək stimullu oyunlara daha tez bağlana bilirlər. Bu hallarda ekran, uşağın daxili gərginliyini müvəqqəti azaltsa da, uzunmüddətli perspektivdə özünüidarə bacarıqlarını zəiflədir.

### Uşaqlar onlayn oyun platformalarında hansı kibertəhlükələrlə üzləşə bilərlər?

Fərid Kazımov qeyd edir ki, ümumiyyətlə, virtual məkan hər bir istifadəçi üçün təhlükəlidir. Uşaqlar isə daha ciddi təhlükələrlə üzləşə bilərlər:

“Təhlükələri qruplaşdırsaq, buna şəxsi məlumatların oğurlanması, haker proqramları vasitəsilə qurğuların ələ keçirilməsi, onlayn zorakılıq və təzyiq, asılılıq yaradan mexanizmlərdən istifadə, ödəniş tələləri və s. misal gətirmək olar. Bu təhlükələr hər bir uşağın gündəlik virtual həyatda üzləşə biləcəyi acı reallıqdır”.

Ekspert virtual oyunlarda yad şəxslərlə ünsiyyətin müxtəlif risklərinə də toxunub. Bildirib ki, virtual oyunlarda kimlik gizliliyi səbəbi ilə manipulyasiya və aldatma riski var. Uşaq qarşısındakının kim olduğunu real olaraq bilmir. Bu da psixoloji təsir, məlumat toplama və digər təhlükələr yarada bilər:

“Məlumdur ki, uşaqlar daha sadəlövhdürlər və onlara müxtəlif məqsədlər üçün təsir etmək istəyən şəxslər bundan istifadə edərək öz məqsədlərinə çata bilərlər. Virtual oyunda bir komandada çıxş edən zaman ünsiyyət daha rahat yaradıla bilir və cinayətkarlar bundan sui-istifadə edir. Küçədə yad şəxslə ünsiyyətdən qaçan uşaq virtual formatda, xüsusən də oyun içində bu ünsiyyətə girmək təhlükəsi yaşayır”.

### “Kibertəhlükəsizliyə dair biliklərin artırılması üzrə ümumi platformaya ehtiyac var”

Bəs valideynlər və məktəblər rəqəmsal savadlılığın artırılması üçün nə etməlidirlər? Fərid Kazımov deyir ki, öncə uşaqlarımızın rəqəmsal nəslə aid olduğunu və onlarla virtual məkanla bağlı biliklər üzrə rəqabət aparmağın olduqca çətin olduğunu anlamalıyıq: “Valideynlər və məktəbin işçi heyəti bu sahədə davamlı olaraq öz biliklərini artırmalıdırlar. Məktəblərdə rəqəmsal təhlükəsizlik dərsləri, kritik düşüncə bacarığının inkişafı, onlayn etik davranış qaydalarının öyrədilməsi istiqamətində biliklər verilməlidir. Düşünürəm ki, eyni zamanda vətəndaşların, xüsusilə uşaq və yeniyetmələrin kibertəhlükəsizliyə dair biliklərinin artırılması üzrə ümumi platformaya ehtiyac vardır”.

### “Ən güclü filtr valideynlə uşağın sağlam ünsiyyətidir”

Kibertəhlükəsizlik baxımından valideynlərin etdikləri səhvlərdən danışan Fərid Kazımov onların ən böyük səhvinin “keçmiş dövrün fəlsəfəsi” ilə yaşaması olduğunu söyləyir. Ənənəvi olaraq valideynlərin böyük əksəriyyəti hesab edir ki, əgər uşaq evdə oturubsa, deməli o mənfi təsirdən qorunur: “Lakin reallıq başqadır və virtual məkanın təsiri “küçə” təsirindən daha güclüdür. Valideyn nəzarətinin zəifliyi, yaxud təmamilə olmaması, xüsusilə yaşlı nəslin texnoloji savadsızlığı ilə də birbaşa bağlıdır. Əksər hallarda uşaqlar öz valideynlərindən texnoloji nəzərdən daha bacarıqlıdır və bundan da sui-istifadə hallar az deyildir. Digər səhv isə total nəzarətin olmasıdır. Bəzi ailələrdə uşaqlara rəqəmsal alətlərdən istifadəni ciddi məhdudlaşdırırlar. Bu baxışı da mənfi hesab etmək olar, çünki müasir durumda texnologiyalar yetişən nəslin inkişafı üçün vacibdir”.

Mütəxəssis deyir ki, valideyn nəzarəti sistemi müxtəlifdir. Məsələn, onlar kontent filtrasiya edir, vaxt limiti qoyur, ödənişləri bloklaya bilirlər. Bu, effektivdir, amma kifayət deyil. Ən güclü filtr valideynlə uşağın sağlam ünsiyyətidir. Uşaqla daimi ünsiyyət, ikitərəfli dialoq ən effektiv nəzarət sistemidir.

Uşaqların ekran vaxtını texniki vasitələrlə tənzimlənməsi məsələsinə toxunan Fərid Kazımov bununla bağlı hazırda imkanların geniş olduğunu söyləyir: “Bu smartfon, planşet yaxud kompüter səviyyəsində vaxt limiti, router üzərindən internet saatı məhdudiyyəti, ailə hesabları kimi mexanizmlər ola bilər. Valideynlər üçün tətbiq, təhlükəsizlik alətləri yetərincədir və hər bir cihazda onlar var. Bununla yanaşı, bu və ya digər hədəflər üçün müxtəlif proqram həlləri də mövcuddur. Reallığı nəzərə alaraq, "Google Family Link", "Apple Screen Time", "Microsoft Family Safety" kimi rəsmi alətləri nümunə göstərə bilərəm. Qadağa qısamüddətli effekt verir. Uzunmüddətli həll maarifləndirmə və balansdır. Tam qadağa uşağı gizli istifadə modelinə keçirə bilər”.





### Rəqəmsal asılılıq klinik diaqnozdan əvvəl davranış səviyyəsində özünü göstərir

Mövzuya psixoloji aspektdən yanaşan Psixologiya-Elmi Tədqiqat İnstitutunun Psixoloji Xidmət və Reabilitasiya Mərkəzinin direktoru psixoloq Zeynəb Əliyeva bildirir ki, virtual oyunlar və rəqəmsal platformalar uşaqların psixoloji inkişafına təsir edən güclü stimullardır: “Psixoloji baxımdan burada əsas məsələ “oyun oynayırmı?” sualı deyil, bu mühitin uşağın emosional tənzimləmə, diqqət, özünə nəzarət və sosial əlaqə bacarıqlarına necə təsir göstərməsidir. Uşağın psixikası inkişaf prosesində olduğu üçün rəqəmsal təsirlər neyropsixoloji səviyyədə daha tez iz buraxa bilir”.

Psixoloqun sözlərinə görə, virtual oyunlar uşağın beynində mükafat sistemini aktivləşdirir. Qazanmaq, səviyyə keçmək, xal toplamaq dopamin ifrazını artırır. Ölçülü olduqda bu, motivasiya yaradır, nəzarətsiz olduqda isə uşaq real həyatda eyni məmnuniyyəti tapa bilmədiyi üçün oyuna daha çox yönəlir. Bu nöqtədə oyun tədricən tənzimləyici vasitəyə çevrilir, yəni uşaq stresini, cansıxıcılığını və emosional boşluğunu ekran vasitəsilə kompensasiya etməyə başlayır.

Rəqəmsal platformaların isə psixoloji baxımdan daha fərqli mexanizmlərlə işlədiyini söyləyən Zeynəb Əliyeva burada uşağın aktiv iştirakçı deyil, davamlı stimula məruz qalan passiv müşahidəçi olduğunu qeyd edir: “Sürətli videolar, tez dəyişən görüntülər və sonsuz axın diqqətin fraqmentləşməsinə səbəb olur. Bu, uşağın diqqətini uzun müddət bir mövzu üzərində saxlamaq qabiliyyətini zəiflədir və impulsiv davranışları artırır. Xüsusilə yeniyetməlik dövründə sosial şəbəkələr özünüdərk prosesinə birbaşa təsir edir. Uşaq öz dəyərini bəyənilmə, baxış sayı və müqayisə üzərindən ölçməyə başlayır ki, bu da özünə inamın zəifləməsinə zəmin yaradır”.

### Rəqəmsal dünya uşaqların fikir dağınığına, IQ səviyyəsinə təsir edirmi?

Zeynəb Əliyeva rəqəmsal dünyanın uşaqların diqqətinə və idrak inkişafına təsir göstərdiyini bildirir. Qeyd edir ki, bu təsirin həm müsbət, həm də mənfi tərəfləri var. Hər şey istifadə müddətindən, məzmundan və valideyn nəzarətindən asılıdır: “Mənfi tərəfləri odur ki, qısa və sürətli kontent (məsələn, sosial media videoları) beyini daimi stimullaşdırır, uşaq uzun müddət bir işə fokuslanmaqda çətinlik çəkir. Davamlı bildirişlər və ekran dəyişiklikləri diqqət müddətini azalda bilər. Yuxu rejiminin pozulması diqqət problemlərini artırır. Xüsusilə 2-6 yaş arası dövrdə beyin sürətlə inkişaf etdiyindən həddindən artıq ekran vaxtı diqqət mexanizminə mənfi təsir göstərir. Müsbət tərəfləri isə maarifləndirici tətbiqlər və məntiq oyunları diqqəti və yaddaşı inkişaf etdirə, problem həlletmə bacarıqları güclənə, dil və vizual qavrama bacarıqları arta bilər”.

Psixoloq bir məqama da xüsusi toxunaraq deyir ki, IQ yalnız ekran istifadəsi ilə müəyyən olunmur. Burada əsas faktorlar genetik amillər, ailə mühiti, oxuma vərdişi, sosial ünsiyyət və fiziki aktivlikdir.

### Zorakılıq məzmunlu oyunlar psixoloji baxımdan risklər yaradır

Həmsöhbətimizin sözlərinə görə, zorakılıq məzmunlu oyunlar psixoloji baxımdan iki risk-aqressiv davranışın normallaşması və emosional duyarsızlaşma yaradır.

Xüsusilə, empati bacarığı hələ tam formalaşmamış uşaqların baxdıqları oyunlarda zorakılığın tez-tez təkrarlanması real həyatda da daha sərt reaksiyalara yol aça bilər. Oyun zamanı uduzmaq isə bəzi uşaqlarda dəyərsizlik və uğursuzluq hissini gücləndirə bilər, xüsusilə də uşaq öz dəyərini nəticə üzərindən ölçürsə.

Rəqəmsal asılılıq klinik diaqnozdan əvvəl davranış səviyyəsində özünü göstərir. Uşaq ekrana çıxışı məhdudlaşdırıldıqda emosional reaksiya verirsə, alternativ fəaliyyətlərdən zövq almırsa, sosial və akademik funksionallıq zəifləyirsə, bu, artıq psixoloji risk siqnallarıdır. Bu, nöqtədə problem oyun deyil, oyunun uşağın emosional ehtiyaclarını əvəz etməsidir.

Psixoloq söyləyir ki, onlayn mühitdə kiberzorakılıq uşağın psixikasında güclü travmatik təsir yarada bilər: “Təhqir, lağ, sosial rədd edilmə uşağın özünə münasibətini zədələyir və narahatlıq, qorxu, depressiv əlamətlər yarada bilər. Bu hallarda bəzi uşaqlar daha da geri çəkilərək virtual dünyaya sığınır və bu, təcridi dərinləşdirir. Erkən psixoloji müdaxilə problemin dərinləşməsinin qarşısını ala və uşağın sağlam inkişafını dəstəkləyə bilər. Evdə qadağalar yox, aydın sərhədlər olmalıdır. Valideyn davranışı, emosional mövcudluğu və real ünsiyyət keyfiyyəti burada əsas qoruyucu faktorlardır. Əsas məqsəd rəqəmsal mühiti tamamilə aradan qaldırmaq deyil, uşağın daxili tənzimləmə mexanizmlərini gücləndirməkdir”.

**Samirə KƏRİMOVA**



# “Novruz kuboku”: Sumqayıt Dövlət Universiteti birinci olub

Ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında “Novruz kuboku” regional futzal turnirinə start verilib.

Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyindən AZƏRTAC-a verilən məlumata görə, oyunlar 2 qrup üzrə Şirvan və Gəncə şəhərlərində keçirilir.

Cənub bölgəsi üzrə Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollecində təşkil olunan oyunlarda Lənkəran Dövlət Universiteti, Şamaxı Dövlət Regional Kolleci, Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kolleci, Lənkəran Dövlət Humanitar Kolleci, Göyçay Dövlət İdarəetmə və Texnologiya Kolleci və Sumqayıt Dövlət Universitetinin komandaları mübarizə aparıb.

Keçirilən oyunların nəticələrinə əsasən, Sumqayıt Dövlət Universiteti 1-ci, Lənkəran Dövlət Universiteti 2-ci, Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kolleci 3-cü yerin sahibi olub.

Qeyd edək ki, Qərb bölgəsi üzrə oyunlar martın 11-də Gəncə İdman Olimpiya Kompleksində keçiriləcək. Yarışda Azərbaycan Dövlət Aqrar Universiteti, Gəncə Dövlət Universiteti, Azərbaycan Texnologiya Universiteti, Mingəçevir Dövlət Universiteti, Mingəçevir Turizm Kolleci Mingəçevir Turizm Kolleci, Ağdam Dövlət Sosial-İqtisadi Kolleci və Şəki Dövlət Regional Kollecinin komandaları iştirak edəcək.

Turnir Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyinin təşkilatçılığı, Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) dəstəyi ilə keçirilir.



# “İdmançının ən böyük qüruru bayrağı zirvələrə qaldırmaqdır”

## Dünya çempionu Hacı Əliyev



**Sərbəst güləş üzrə 3 qat dünya, 4 qat Avropa çempionu, 2 qat olimpiya mükafatçısı, Atletlər Komissiyasının üzvü, Azərbaycan Güləş Federasiyasının sərbəst güləş üzrə koordinatoru Hacı Əliyev “Məktəbdə...” layihəsinin qonağı olub.**



Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən reallaşdırılan layihənin budəfəki görüşü paytaxtdakı 47 nömrəli tam orta ümumtəhsil məktəbində keçirilib.

5 mart - Bədən Tərbiyəsi və İdman Günü ərəfəsində məktəbdə qonaq olan Hacı Əliyev şagirdlərlə təhsil müəssisəsinin idman zalında görüşüb. Qonaq həm məktəblilərlə səmimi söhbət edib, həm də şagirdlərin müxtəlif idman növləri üzrə məşq prosesini izləyib.

H.Əliyev sağlam həyat tərzinin təbliği, idmanın gənclərin fiziki və mənəvi inkişafındakı rolu, peşəkar idmançı olmağın məsuliyyəti və uğura aparan yol barədə danışıb. Sərbəst güləşçi idman karyerası boyunca qazandığı təcrübəni şagirdlərlə bölüşüb, məqsədyönlü çalışmanın və nizam-intizamın əhəmiyyəti, təhsil və idmanın paralel şəkildə inkişaf etdirilməsinin vacibliyindən bəhs edib.

Qazandığı uğurlardan danışan Hacı Əliyev bildirib ki, hər bir nailiyyətin arxasında uzun illərin zəhməti dayanır və idmançı üçün ən böyük qürur həmin zəhmətin nəticəsi olaraq Azərbaycan bayrağını zirvələrdə görməkdir. Qonaq həmçinin şagirdlərə zərərli vərdişlərdən uzaq olmağın və sağlam seçimlər etməyin əhəmiyyəti barədə tövsiyələr verib, onları maraqlandıran sualları cavablandırıb.

“Məktəbdə…” layihəsinin əsas məqsədi şagirdlərdə mənəvi-əxlaqi dəyərlərə hörmət və mütaliəyə marağı artırmaq, vaxtın düzgün idarə olunması, sosial şəbəkələrə aludəçiliyin aradan qaldırılması və mövcud imkanlardan səmərəli istifadə yollarını təbliğ etməkdən ibarətdir.

Qeyd edək ki, layihənin informasiya dəstəyi “Kaspi” qəzeti və Kaspi.az saytıdır.

“AZƏRBAYCAN MÜƏLLİMİ”

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003

**Tiraj:** 7893 **Sifariş:** 339

**Məsul növbətçi:** O.Mustafayev

# Etibarsız sayılır

**Bakı şəhər** 34 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Həsənov Şahin Nazim oğluna verilmiş A-269391 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 2013-cü ildə Fərzili Səbuhi Malik oğluna verilmiş A-017808 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 2014-cü ildə Bayramova Aygün Cəlal qızına verilmiş AM-001868 nömrəli magistr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** tərəfindən 2019-cu ildə Əliyeva Həmiyyə Elçin qızına verilmiş C-032466 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Masallı şəhər** 1 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Hünbətov Elnur Talıb oğluna verilmiş 507976 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Çaxırlı kənd tam orta məktəbi 2003-cü ildə bitirmiş Əsgərli Lalə Əlibala qızına verilmiş A-741966 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəbrayıl rayon** 10 nömrəli tam orta ümumtəhsil məktəbi 2014-cü ildə bitirmiş Süleymanova (Məmmədova) Nuranə Asif qızına verilmiş A-360510 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Neftçala rayon** Xıllı qəsəbə 2 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 1999-cu ildə bitirmiş Rəhimova (İmanova) Humay Balamirzə qızına verilmiş B-268536 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Memarlıq və İnşaat Universiteti** tərəfindən 2009-cu ildə Süleymanova İradə Şahmar qızına verilmiş B-154460 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Qəbələ rayon** Nohurqışlaq kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Kərimova Həmidə Mehdi qızına verilmiş A-458047 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Zəngilan rayon** 12 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Əliyev Muxtar Yusif oğluna verilmiş B-431900 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2022-ci ildə Rüstəmov Əlvan Süleyman oğluna verilmiş C-139166 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Respublika Olimpiya İdman Liseyini** 2013-cü ildə bitirmiş Xudiyev Ümid Vəli oğluna verilmiş A-210594 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Fizika-riyaziyyat və informatika təmayüllü Respublika liseyini** 2008-ci ildə bitirmiş Ələkbərov Amid Ağamalı oğluna verilmiş B-561127 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı şəhər** 5 nömrəli tam orta ümumtəhsil məktəbi 2007-ci ildə bitirmiş Şamiyeva (Kişiyeva) Günel İsaq qızına verilmiş B-440052 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Milli Aviasiya Akademiyası** tərəfindən 2022-ci ildə Həşimli Yelmar Tahir oğluna verilmiş C-142772 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Şəki rayon** Baş Göynük kənd 2 nömrəli ümumi orta ümumtəhsil məktəbin IX sinfini 2013-cü ildə bitirmiş Musabəyova Lalə Namiq qızına verilmiş A-364751 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan şəhər** 6 nömrəli tam orta ümumtəhsil məktəbi 1995-ci ildə bitirmiş Şahverdiyeva (Sultanova) Zülfiyyə Gündüz qızına verilmiş A-0296 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar rayon** Gədəzeyxur kənd tam orta ümumtəhsil məktəbi 2005-ci ildə bitirmiş Vəlimətova Aynur Sövləddin qızına verilmiş A-225345 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar şəhər** 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2013-cü ildə bitirmiş Rzayeva Günay Elman qızına verilmiş A-257939 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar rayon** Hil kənd 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2022-ci ildə bitirmiş Beybutov Murad Ramik oğluna verilmiş E-495598 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 276 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Yusifova Aybəniz Əyyub qızına verilmiş B-314736 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 251 nömrəli tam orta ümumtəhsil məktəbi 1984-cü ildə bitirmiş Artyemov Valeriy Aleksandroviçə verilmiş 722978 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan şəhər** humanitar fənlər təmayüllü 1 nömrəli məktəb-liseyi 2019-cu ildə bitirmiş Əliyev İmran Namik oğluna verilmiş E-239129 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** Ovçubərə kənd tam orta ümumtəhsil məktəbin VIII sinfini 1996-cı ildə bitirmiş Balaşova İlahə Vəli qızına verilmiş B-037443 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** Nizami kənd tam orta məktəbi 2015-ci ildə bitirmiş Əzizov Qasıməli Mehdi oğluna verilmiş A-459024 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** Nizami kənd tam orta məktəbi 2001-ci ildə bitirmiş Abdullayeva (Soltanova) Günay Akif qızına verilmiş A-558227 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası** tərəfindən 2005-ci ildə Kurkina Yelena Gennadiyevnaya verilmiş BC-000867 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 1 nömrəli İdman Liseyi (277 nömrəli İdman təmayüllü tam orta məktəb) 2014-cü ildə bitirmiş Həsənov Xəzər Azər oğluna verilmiş A-300333 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi rayon** Nəcəfqulubəyli kənd tam orta ümumtəhsil məktəbi (keçmiş 10 nömrəli) 1994-cü ildə bitirmiş Ömərov Asəf Eldar oğluna verilmiş 080765 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci** tərəfindən 2003-cü ildə Mahmudov Abdulla Ramiz oğluna verilmiş AB-II-096359 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 249 nömrəli tam orta məktəbin IX sinfini 2016-cı ildə bitirmiş İsmayılova Gülnar Vasif qızına verilmiş A-609299 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** tərəfindən 2024-cü ildə Məmmədova Gülşən Rövşən qızına verilmiş C-215019 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** tərəfindən 2020-ci ildə Şabanlı Məmmədəli Adil oğluna verilmiş C-062678 nömrəli fərqlənmə bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Babək rayon** Didivar kənd tam orta məktəbin IX sinfini 2004-cü ildə bitirmiş Məmmədov Əyyub Əli oğluna verilmiş B-704333 nömrəli əsas təhsil haqqında şəhadətnamə və 2006-cı ildə verilmiş B-242816 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar rayon** Samur qəsəbə tam orta ümumtəhsil məktəbi 2003-cü ildə bitirmiş Babayev Ənvər Nəmət oğluna verilmiş A-665630 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Göycəli kənd tam orta ümumtəhsil məktəbi 2007-ci ildə bitirmiş Həsənova Aynur Polad qızına verilmiş B-408607 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tərtər rayon** Qazyan kənd tam orta məktəbi 2009-cu ildə bitirmiş İsazadə Lalə Kərim qızına verilmiş B-652462 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göygöl şəhər** 3 nömrəli tam orta ümumtəhsil məktəbi 2007-ci ildə bitirmiş İsmayılova Aysel Zahid qızına verilmiş B-420912 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Alar kənd 2 nömrəli tam orta məktəbi 1993-cü ildə bitirmiş Hümbətov Coşqun Alxan oğluna verilmiş A-165727 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Aqrar Universiteti** tərəfindən 2020-ci ildə Cavadzadə Ülvi Rəfi oğluna verilmiş C-085865 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Məşədlər kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Əhmədova Aliyə Vaqif qızına verilmiş B-035105 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Maşlıq kənd tam orta məktəbi 2024-cü ildə bitirmiş Xankişiyev Elmar Elnur oğluna verilmiş E-726678 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 111 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2002-ci ildə bitirmiş Ağayev Orxan Mirata oğluna verilmiş BN-513623 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 2009-cu ildə Allahverdiyeva Könül Mahmud qızına verilmiş B-147594 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 106 nömrəli tam orta ümumtəhsil məktəbi 2020-ci ildə bitirmiş Qarayev Elmir Sarvan oğluna verilmiş E-274117 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Dillər İnstitutu** tərəfindən 2001-ci ildə Gəncəliyeva Aybəniz Şakir qızına verilmiş MNA-005106 nömrəli fərqlənmə magistr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 59 nömrəli tam orta ümumtəhsil məktəbi 2022-ci ildə bitirmiş Süleymanlı Fatimə Ramil qızına verilmiş E-449220 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Memarlıq və İnşaat Universiteti** tərəfindən 2007-ci ildə Hacıyev Natiq Nəcməddin oğluna verilmiş B-097088 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**68 nömrəli texniki peşə məktəbi** tərəfindən 1993-cü ildə Əliyev Emil Çingiz oğluna verilmiş 739959 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Ali Hərbi Dənizçilik Məktəbi** tərəfindən 1999-cu ildə Qəhrəmanov Mahir Əsgər oğluna verilmiş MN-0002880 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Qərb Universiteti** tərəfindən 1999-cu ildə Məmmədov Elşad Şahbaz oğluna verilmiş A-050724 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**İmişli rayon** Muradxanlı kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2004-cü ildə bitirmiş Orucova Ağca İsmayıl qızına verilmiş A-076699 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 18 nömrəli tam orta ümumtəhsil məktəbi 2007-ci ildə bitirmiş İbrahimov Ülvi Şahin oğluna verilmiş B-430759 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**N.Tusi adına 173 nömrəli tam orta məktəbi** 1994-cü ildə bitirmiş Babakişiyeva (Ömərova) Şəfəq Əli qızına verilmiş tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə şəhər** 1 nömrəli tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Məmmədov Azad Mübariz oğluna verilmiş A-352806 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** tərəfindən 2016-cı ildə Rəhimova Sevinc Telman qızına verilmiş AM-013464 nömrəli magistr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 5 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2018-ci ildə bitirmiş Xıdırov Sərxan Nazim oğluna verilmiş C-181499 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 86 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Həsənov Zakir Habil oğluna verilmiş A-416356 nömrəli ram orta təhsil haqqında attesstat itdiyi üçün etibarsız sayılır.

**Neftçala rayon** Xıllı qəsəbə 1 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Yaqubov İlyas Tariyel oğluna verilmiş E-288494 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Neftçala rayon** Həsənabad qəsəbə 2 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş İbayev Emin Fazil oğluna verilmiş B-650964 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 24 nömrəli tam orta ümumtəhsil məktəbi 2000-ci ildə bitirmiş Axundova (Əhmədova) Xəyalə Eldar qızına verilmiş 420068 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

“Azərbaycan müəllimi” qəzetinin kollektivi Bakı Şəhəri üzrə Təhsil İdarəsinin Media və ictimaiyyətlə əlaqələr sektorunun müdiri Bəşarət Məmmədova anası

**ƏSMƏR MƏMMƏDOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Heydər Əliyev adına Liseyin rəhbərliyi və kollektivi Bakı Şəhəri üzrə Təhsil İdarəsinin Media və ictimaiyyətlə əlaqələr sektorunun müdiri Bəşarət Məmmədova anası

**ƏSMƏR MƏMMƏDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.